# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XII SESSİYASI İCLASININ

# PROTOKOLU № 87

*Milli Məclisin iclas salonu.*
*1 fevral 2019-cu il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 113 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.07 dəq.) |
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yenidən təşkil edilməsi haqqında.
2. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının yenidən təşkil edilməsi haqqında.
3. Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planı haqqında.
4. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında.
5. "Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

6. “Azərbaycan Respublikası Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında yerləşmə ölkəsi haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

7. “Türk Akademiyasının maliyyə qaydaları haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

8. “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

10. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

11. “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD

nömrəli Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

12. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

13. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

15. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

16. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

17. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

18. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

19. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

20. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barə-

də Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

21. Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

22. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

23. "Patent haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" və "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

24. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

25. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

26. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

27. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

28. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

29. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

30. "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

31. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

32. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

33. "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

34. "Sosial sığorta haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

35. "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

36. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

37. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

38. “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qasnununun layihəsi haqqında (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yenidən təşkil edilməsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**2. Azərbaycan Respublikası Milli Məclisi Hesablayıcı komissiyasının yenidən təşkil edilməsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

**3. Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planı haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əflatun Amaşov, Fazil Mustafa, Vahid Əhmədov, Fərəc Quliyev, Əli Məsimli, Sahib Alıyev, Zahid Oruc, Siyavuş Novruzov, Flora Qasımova, Ziyafət Əsgərov, Elmira Axundova, Jalə Əliyeva, Fəzail Ağamalı, Qənirə Paşayeva, Azay Quliyev, İqbal Məmmədov, Əli Hüseynli

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**5. "Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov, Aytən Mustafazadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**6. “Azərbaycan Respublikası Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında yerləşmə ölkəsi haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**7. “Türk Akademiyasının maliyyə qaydaları haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, İsa Həbibbəyli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**8. “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası**

**Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
| Lehinə | 102 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**10. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1358-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**11. “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**13. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
| Lehinə | 102 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**14. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Çingiz Qənizadə, Qüdrət Həsənquliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**15. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.04 dəq.) |
|---|---|
| Lehinə | 90 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**16. “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Aqiyə Naxçıvanlı

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**18. Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Aqiyə Naxçıvanlı

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**19. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**20. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.13 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**21. Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**22. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.16 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**23. “Patent haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” və “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.18 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**24. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Çingiz Qənizadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.24 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**25. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fəzail Ağamalı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.29 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**26. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**27. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.32 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**28. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov, Elmira Axundova, Zahid Oruc, Aqil Abbas

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.52 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**29. “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov, Siyavuş Novruzov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**30. “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.59 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**31. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Rafael Hüseynov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.00 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**32. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan**

**Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.03 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**33. "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**34. “Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**35. “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 17.06 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**36. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**37. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**38. "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.11 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*1 fevral 2019-cu il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri! Milli Məclisin 2019-cu il yaz sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət himni səslənir.)*

Hörmətli millət vəkilləri, yaz sessiyasının başlanması münasibəti ilə mən sizin hamınızı ürəkdən təbrik edirəm! Əminəm ki, parlamentin qanunvericilik fəaliyyəti bu sessiyada da səmərəli olacaqdır.

Hörmətli deputatlar, ötən sessiyanın və ilin yekunları barəsində mən sizə məlumat vermişdim. Onları təkrar eləmək istəmirəm. Bir məsələni qeyd edim ki, Milli Məclis möhtərəm cənab Prezident İlham Əliyevin yüksək səviyyədə apardığı daxili və xarici siyasəti dəstəkləmək üçün əlindən gələni etmişdir və qanunvericilik fəaliyyətini artırmışdır. Əminəm ki, parlament indiyədək əldə etdiyi uğurları bu sessiyada da davam etdirəcək və qanunvericilik fəaliyyətini daha da artıracaqdır.

Yaz sessiyasının qanunvericilik planı hazırdır və bu gün biz onu sizinlə müzakirə edəcəyik. Bu sessiyada ondan başqa, Konstitusiyaya və qanunvericiliyə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatı dinləniləcək. Bundan əlavə, 2018-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsi Milli Məclisin müzakirəsinə çıxarılacaqdır.

Yaz sessiyasının iclaslarında Hesablama Palatasının illik fəaliyyəti haqqında hesabat, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) və Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun hesabatı olacaqdır.

Hörmətli deputatlar, əminəm ki, bu sessiyada da biz fəal olacağıq və öz işimizi yüksək səviyyədə yerinə yetirəcəyik. İndi isə xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.07 dəq.) |
|---|---|
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. İclasa başlaya bilərik. Bugünkü gündəliyimizdə 38 məsələ var. Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi.

İş təzə başlayır, hamımız oturmuşuq. 100 nəfər, 103 nəfər, 105 nəfər, xahiş edirəm, səsvermədə diqqətli olun.

115 nəfər adam var.

Bildiyiniz kimi, biz hər il İntizam komissiyasını, eləcə də Hesablayıcı komissiyanı yenidən təşkil edirik. Gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Milli Məclisinin İntizam komissiyasının yenidən təşkil edilməsi haqqındadır. Biz bu məsələyə həm Milli Məclisin rəhbərliyi, həm də komitə sədrləri ilə birgə baxmışıq. Siyahılar sizdə var. Siyahılara bir əlavə yoxdur ki? Bildiyiniz kimi, biz İntizam komissiyasının tərkibini 11 nəfər müəyyən eləmişik. Siyahı sizdə var. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Gündəliyin 2-ci məsələsi Hesablayıcı komissiyanın yenidən təşkil edilməsi haqqındadır. Onun da siyahıları sizdə var. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Gündəliyin 3-cü məsələsi Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planı haqqındadır. Müzakirələrə ehtiyac varsa, buyurun, yazılın. Əflatun Amaşov buyursun.

**Ə.Amaşov.** Hörmətli cənab Sədr, hörmətli həmkarlar, əziz media nümayəndələri! Milli Məclisin yaz sessiyasının qanunvericilik işləri planı olduqca zəngindir. Düşünürəm ki, biz kifayət qədər məhsuldar işlər görəcəyik. Mən iki yeni qanun layihəsinin hazırlanmasını və qəbulunu təklif edirəm. Bunlardan biri Mətbuat Şurası, digəri isə onlayn media ilə bağlıdır. Uzun müddətdir ki, hər iki qanunun vacibliyi ilə bağlı media aləmində geniş müzakirələr gedir. Ona görə də burada vaxtınızı almayacağam. Amma fürsətdən istifadə edib, başqa çox vacib bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Söhbət Gürcüstanda ermənilərin yığcam məskunlaşdığı Axalkalakinin Buğaşen kəndində erməni terrorçu Mixail Avakyana abidə qoyulmasından gedir. O Avakyana ki Xocalı soyqırımında iştirak edib, Dağlıq Qarabağda əli dinc soydaşlarımızın qanına batıb.

Gürcü və Azərbaycan xalqları tarixən dost xalqlardır, aralarında heç bir ciddi münaqişə olmayıb. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra əlaqələr daha da möhkəmlənib, biz bir-birimizə lazımıq. Azərbaycan Gürcüstan üzərindən strateji layihələr reallaşdırır, Gürcüstana böyük sərmayələr yatırır. Gürcüstanın da regionda əsas tərəfdaşı bizik. Çox təəssüf ki, bunu gözü götürməyən qüvvələr var. Bunlar hər imkanda ara qarışdırmağa çalışırlar, istəyirlər ki, gürcü və Azərbaycan xalqları arasındakı dostluq pozulsun. Məlum abidənin ucaldılması bunun bariz nümunəsidir. Özü də elə bir vaxt seçiblər ki – 20 yanvar. Bu heç də təsadüfi deyil. Deməli, hər şey planlı şəkildə həyata keçirilib.

Biz, Milli Məclisin Azərbaycan və Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri, gürcüstanlı həmkarlarımıza ünvanladığımız müraciətdə bunları bildirmişik. Hər iki tərəf birlikdə bu sayaq təxribatların qarşısını almalıdırlar. Həmin düşmən qüvvələr hələ 2006-cı ildə də başqa bir erməni terrorçuya, Dalbalyana Axalkalakidə heykəl ucaltmışdılar. O da Dağlıq Qarabağda bizə qarşı qətllər törətmişdir. O zaman abidə qoyulmasına qarşı ciddi çıxılsa idi, bugünkü vəziyyət ilə üzləşməzdik. Göründüyü kimi, həmin qüvvələr bu gün də fəaldırlar. Nəriman Nərimanovun Marneulidəki heykəlini belə götürmək istəyirlər. Onu xalqlarımıza düşmən kimi təqdim edirlər, bu da yolverilməzdir, təxribatdır, iki xalqın arasını vurmağa cəhddir. Əminik ki, baş verənlərdən Gürcüstan hakimiyyəti böyük ölçüdə xəbərsizdir. Bəlkə də baş verənlərin fərqinə varmırlar. Amma ciddi yanaşılmalıdır. Bir daha bildirmək istərdim ki, Azərbaycan və gürcü xalqları dost xalqlardır. Ölkələrimiz strateji tərəfdaşdır. Gürcüstanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə onlarla soydaşımız qəhrəmancasına vuruşub qanlarını töküblər. Dağlıq Qarabağda dinc əhalini erməni quldurlarından müdafiə edərkən əslən Gürcüstandan olan 4 nəfər soydaşımız qəhrəmancasına həlak olub. Onların xatirələri bizim üçün çox qiymətlidir. Biz, həm gürcülər, həm də azərbaycanlılar birlikdə bu dəyəri bizə düşmən olan qüvvələrdən qorumalıyıq. Ümid edirik ki, qaldırdığımız məsələ özünün nəzarətli həllini tapacaqdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, ancaq Marneulidə olan məsələ, Nərimanovun heykəli məsələsi həll olundu. O ki qaldı Axalkalakidə heykəlin qoyulması, bildiyiniz kimi, Xarici İşlər Nazirliyi buna münasibət bildirmişdir. Gürcüstanın

Azərbaycandakı səfirini dəvət edib, rəsmi etiraz bildirmişlər, eləcə də Azərbaycanın Gürcüstandakı səfiri Gürcüstanın Xarici İşlər Nazirliyində olub. Xarici İşlər Nazirliyinin mətbuat xidməti bəyanat verib. Bu məsələlər üzrə iş gedir və mən güman edirəm ki, gürcü hökuməti buna diqqət yetirəcək və bu məsələlər öz həllini tapacaqdır.

Siyahı pozuldu. Siyahını verin. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli Sədr, hörmətli millət vəkilləri. Mən də qanunvericilik işləri planı ilə bağlı təqdim olunan kifayət qədər zəngin layihəni dəstəkləyirəm. Hesab edirəm ki, həqiqətən də, bu gün ən aktual sahələrdən biri olan onlayn media ilə bağlı qanunun qəbulu istiqamətində işlər görülməlidir. Çünki bu, artıq ölkəmizdə ən çox rast gəlinən hüquq münasibətləridir və internet media sistemində də hazırda olduqca böyük problemlər yaşanır. Bunun qanunvericilikdə əksini tapması olduqca vacibdir. Digər tərəfdən, mən bir təklif də eləmək istəyirəm ki, biz, ümumiyyətlə, qəbul etdiyimiz qanunların hansının cəmiyyətdə işləmədiyi ilə bağlı bir statistik araşdırma aparılmasını təmin eləməliyik. Çünki elə qanunlar var ki, onlar tam mənada işləmir. Onlara ya yenidən baxılmalıdır, ya da müddəaları bir az da sərtləşdirilməlidir. Onların içərisində, məsələn, "İctimai iştirakçılıq haqqında", gender bərabərliyi haqqında qanunlar var. Bir çox qanunlar var ki, bunlar tam mənada cəmiyyətdə işləmir. İndi biz tütün əleyhinə qanun qəbul elədik, amma hələ də cəmiyyətdə onun gətirdiyi məhdudiyyətlərin hər hansı şəkildə təzahürünü görə bilmirik. Bir çox hallarda elə köhnə qaydada davam edir. Ona görə də bunun konkretləşdirilməsini, yaxud da qanunda hansı boşluqlar varsa, ona baxılmasını məqsədəuyğun sayıram.

Burada səsləndirilən fikirlərlə mən də razıyam.

Gürcüstanda bu məsələyə etiraz bildirməliyik. Amma bu etirazlardan daha önəmlisi Azərbaycan dövlətinin, Azərbaycan cəmiyyətinin doğru alternativləri tapmasıdır. Alternativlər nədən ibarətdir? Məsələn, Gürcüstanda, deyək ki, düşmən ermənidir. Bizə qarşı silah işlədən, azərbaycanlıları qətliam edən, soyqırım törədən insanlara öz qəhrəmanı kimi baxır və belə abidələrə pul xərcləyir, müxtəlif vasitələrlə onları qoymağa çalışır. Bəs, əvəzində biz nə edirik? Məsələn, ermənilərə qarşı azərbaycanlıların ən böyük cavabını verən tarixi şəxsiyyətimiz Əhməd Ağaoğludur. 1905-ci ildə "Difai" təşkilatını yaratmaqla ermənilərin bütün soyqırımının qarşısını aldı. Çar hökumətinin təzyiqlərinə baxmayaraq, bütün qaçaqları, ziyalıları toplayaraq, gizli şəkildə təşkilatlanaraq onların hamısını sıradan çıxartdı və məğlub elədi. O, böyük bir qətliamın qabağını aldı.

Əhməd Ağaoğlu kimdir? Əhməd Ağaoğlu Sarbonanı bitirmiş, Azərbaycanın bəlkə də gəlib-keçmiş ən böyük mütəfəkkiridir. Yəni islam tarixindən tutmuş, milli tarixə qədər Əhməd Ağaoğlu miqyasında irs qoyub gedən ikinci bir şəxsiyyət yoxdur. Onun bu il 150 illiyidir. Mən Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasına da, Azərbaycan Milli Ensiklopediyasına da çox baxdım. Onlarda onun doğum və ölüm tarixlərindən yalnız illər yazılıb. Yəni heç tədqiqat da aparılmayıb ki, bu adam 1869-cu ilin dekabr ayında doğulub və bu il ölümünün də 80 illiyidir. 1939-cu ilin 19 mayında vəfat edib. Bu məlumatlar ensiklopediyalara belə düşməyib. Çünki mən hesab edirəm ki, araşdırılma lazımi səviyyədə aparılmayıb. İndi bu adamın 150 illiyidir. Biz "Difai"nin də yaradıcısı kimi, ona alternativ olaraq heykəl qoysaq, yüksək səviyyədə yubileyini qeyd eləsək, ermənilərə

bundan gözəl nə cavab ola bilər? Azərbaycan cəmiyyətində Azərbaycan dövlətinin qurucuları sırasında yer alır. Türkiyə Cümhuriyyətinin qurucularından biridir. Üçüncüsü, Əhməd Ağaoğlu Azərbaycan nümayəndə heyətinin üzvü kimi Parisə getməsin deyə, ingilislər məhz onu Maltaya sürgün elədilər. Çünki diplomatik danışıqları fransızca ən yüksək səviyyədə aparmaq keyfiyyətinə sahib olan bir şəxsiyyət idi. O baxımdan, hesab edirəm ki, bu işlər görülməlidir.

Biz dəfələrlə burada Nuru Paşa ilə bağlı da məsələ qaldırdıq, gördünüzmü, gözəl bir parad oldu. Ölkə Prezidenti çox yüksək səviyyədə çıxış elədi. Cənab Ərdoğan çıxış elədi və göstərdi ki, alternativləri qaldırmaq lazımdır. Bizə qarşı soyqırım törədənlərin qarşısına çıxacaq, ona cavab verə biləcək tarixi şəxsiyyətlərimiz var. Xalq da bilsin ki, biz təkcə yazıq obrazında kim isə bizi qırıbdır, onun abidəsini buradan, oradan götürmək, qaç-qovla məşğul deyilik. Həm də bizim də kişilərimiz olub, bunlar da döyüşüblər, bu işi təşkil ediblər. Biz siyasətimizi daha çox onun üzərində qursaq, məncə, xalqa da əlavə stimul, güc verərik ki, çar dövründə o boyda təzyiqin altında bu gizli təşkilatı yaradaraq ermənininin qabağında durub. Biz hər bir azərbaycanlının bu işə, bu gücə sahib ola biləcəyi ideyasını təlqin eləməklə daha çox irəli gedə bilərik. Ona görə də mən bu etirazların tərəfdarıyam. Xarici İşlər Nazirliyi bu məsələyə qarışsın, hamısını deyək. Amma biz onun alternativlərini qoysaq, Azərbaycan cəmiyyətinə göstərsək ki, biz də cavabını vermişik, bu, artıq cəmiyyətimizdə tamamilə başqa bir ab-hava yaratmış olar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov öz çıxışında dedi ki, Gürcüstandan olan 4 nəfər soydaşımız Qarabağ

döyüşlərində qəhrəmancasına həlak olub. Birinci, heykəli Axalkalakidə erməni hökuməti deyil, Axalkalakidə yaşayan ermənilər qoyublar. Mən hesab edirəm ki, bu istiqamətdə işlər gedir. Bizim Marneulidə yaşayan azərbaycanlılar da eyni qaydada heykəl qoyacaqlar. Bu, öz yerində. O ki qaldı tədqiqat məsələsinə, deyəsən, özün lap yaxşı tədqiq eləmisən, elə tədqiqatı axıra da çatdır. Ondan sonra lazım olan yerlərə – ensiklopediyalara, Tarix İnstitutuna göndərək, bu məsələ ilə məşğul olsunlar. Vahid Əhmədov.

**V.Əhmədov.** Sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, yaz sessiyasının başlaması münasibəti ilə mən millət vəkillərini təbrik edirəm və bu sessiyaya uğurlar arzu edirəm. Mən çox ciddi bir məsələyə toxunmaq istəyirəm. Deməli, biz 3 il bundan qabaq əmanətlərin tam sığortalanması haqqında qanun qəbul etdik. Həmin qanunun müddəti 2019-cu il mart ayının 1-də başa çatır. Faktiki olaraq, artıq bir sıra banklarda əhali öz əmanətlərini geri çəkməyə başlayıb. O banklara 3 il müddət verildi ki, bank sistemində müəyyən qədər sağlamlaşdırma prosesi həyata keçirilsin. Çox təəssüf ki, biz burada ciddi nəticəyə nail ola bilmədik. 3 il müddətinə qoyulan əmanətlərin məbləği bu gün, ümumiyyətlə, 42 faizdən artıqdır. Yəni əgər "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun müddəti uzadılmasa, ya da yenidən qəbul olunmasa, biz bank sistemində çox ciddi problemlərlə üzləşə bilərik. Bu məsələni mən bir neçə dəfə həm komitədə, həm də plenar iclasda qaldırmışam. Çox təəssüf ki, plenar iclaslarda bu qanunun uzadılması, ya da yenidən qəbul edilməsi ilə əlaqədar hələlik heç bir nəticə əldə olunmayıb. Ona görə mən Azərbaycan hökumətindən artıq dərəcədə xahiş edirəm ki, bu məsələyə baxsınlar və bu qanunun müddətini bir, ya üç il uzatsınlar, ya da təzə

qanun qəbul edək. Yoxsa, onsuz da vəziyyəti o qədər də müsbət olmayan bank sistemində daha ciddi problemlərlə üzləşə bilərik.

Digər məsələ. Burada Gürcüstanla əlaqədar həmkarlarım məsələ qaldırdı. Əlbəttə, Azərbaycan Gürcüstanın strateji müttəfiqidir. Biz bunu başa düşürük. Bizim bütün boru kəmərlərimiz, dəmir yollarımız bu ərazi vasitəsilə Avropaya çıxarılır, amma Gürcüstan dövləti də başa düşməlidir ki, Azərbaycan onun strateji müttəfiqi olduğu üçün Azərbaycandan çox böyük dividentlər əldə edir və belə hərəkətlərə yol verməməlidir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Azərbaycan dövləti bu işlərə daha dəqiq yanaşmalıdır ki, əhali arasında daha ciddi problemlər yaranmasın. Qarabağda azərbaycanlıları öldürən bir erməninin heykəlini qoymaq Gürcüstan dövlətinə yaraşan hərəkət deyil. Digər məsələlər də var. Bu məsələləri mənim həmkarım Əli Məsimli səsləndirəcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev**. Çox sağ olun. Hörmətli Sədr, hörmətli həmkarlar. Bu işlər planı və əlavələr, – cənab Sədrin dediyi kimi, əlavə işlər, – təbii ki, qəbulolunandır. Mən hesab edirəm ki, bir məsələyə də baxmalıyıq. Dünyadakı əsas cərəyanlara baxdıqda görürük ki, torpaq və texnikanın ardınca yeni iqtisadiyyat dövründə informasiya və məlumat bazasına söykənən məhsuldar qlobal rəqabət dönəmi başlayıb. Həyatın və dövlətin yeni təbiətini müəyyənləşdirən "istehsal-istehlak-böyümə" düsturunu davam etdirmək imkanları məhdudlaşır. Enerji, su, ərzaq təhlükəsizliyi, həyatın hər sahəsində dördüncü ölçüyə keçid, işçi qüvvəsi kimi insan resurslarının tədricən aradan qalxması, "sərt gücdən yumşaq gücə keçid" təməl reveranslar

olaraq formalaşmağa başlayıb. Bütün təməl prinsiplər və parametrlər içərisində yer alan texnologiyadakı dəyişikliklər, süni intellekt, virtual genişləndirilmiş reallıqlar inkişaf edərək insanların həyat və təbiətini dəyişməyə namizəddir.

Mən bunları niyə sadaladım? Hesab edirəm ki, bütün bu qlobal şərtləri nəzərə alaraq, Azərbaycan neft ticarəti təhlükəsizlik ekosistemindən yeni təhlükəsizlik ekosisteminə keçməyi bacarmalıdır və bu yeni təhlükəsizlik ekosistemi haqqında tədbirlər görülməlidir. Bu istiqamətdə parlament yaz sessiyası dönəmində yeni müzakirələr aparmalıdır, müvafiq komitə və şöbələr təhlükəsizlik ekosistemi haqqında qanun layihəsini müzakirəmizə təqdim etməlidirlər. Biz də əlimizdə olan material və təklifləri onlara təqdim eləyə bilərik. Cənab Prezidentin yeni dönəm üçün qoyduğu prioritetlər də onu göstərir ki, bu çox vacib şərtlərdən biridir və biz bu məsələyə yenidən baxmalıyıq.

İkinci məsələ parlament televiziyası məsələsidir ki, bu məsələ keçən dönəmdə də səsləndirilmişdi. Hesab edirəm, indiki dönəmdə bu çox vacib şərtlərdən biridir. İndi beşinci kalonun fəallaşması, xarici dövlətlərin ölkədəki vəziyyəti gərginləşdirmək üçün göstərdiyi çabalar informasiya savaşında bu televiziyanın olmasının önəmini həddən artıq artırır. Bizim parlamentdə istənilən müxalif fikrin ortaya qoyulması, mən öz timsalımda deyirəm, dəfələrlə bütün məsələlərlə bağlı olaraq əgər kəm-kəsir olubsa, çox sərt şəkildə mövqe bildirmişəm. Büdcə məsələlərində çox sərt şəkildə mövqe bildirmişəm. Təkliflərimin 90–95 faizi, demək olar ki, həmişə qəbul olunub. Amma biz bu müxalif fikrin, davranışın, hakimiyyətə müxalifliyin dövlətə müxaliflıklə fərqini ortaya qoymağı bacarmalıyıq. Kənarda – meydanlarda, küçələrdə bu müxalifliyi eləyənlər görməlidirlər ki, parlamentdə ən nor-

mal şəkildə problemlərə müxalif davranışlar vardır, konsepsiyalar ortaya qoyulur və bu da çox normal şəkildə qarşılanır. Amma bunu cəmiyyətə çatdırmağımız üçün rıçaqlarımız məhduddur və hesab edirəm ki, indi bəlkə Azərbaycan Televiziyasının rəhbərliyində dəyişiklik olandan sonra buna müəyyən qədər yenidən baxılsın. Amma parlament televiziyasının olması, deputatların ayrı-ayrılıqda fəaliyyəti haqqında münasibətlərin bildirilməsi, deyilən fikirlərin, xüsusən müxalif fikirlərin orada səsləndirilməsi vacib şərtlərdən biridir.

Parlament deputatları haqqında bu yaxınlarda mənə də sual vermişdilər. Fəaliyyətsizlik ilə bağlı ortaya məsələ qoyurlar. Təbii ki, fəaliyyət təkcə çıxış eləməklə bağlı deyil. Mən adlar da çəkib demişdim. Məsələn, deputat həmkarım Azər Kərimlini göstərmişdim ki, ola bilər, çıxışları azdır, amma onun İtaliyada göstərdiyi fəaliyyət az qala bir institutun göstərdiyi fəaliyyət qədərdir. Burada o cür onlarca deputatın adını çəkmək mümkündür. Yəni deputatlara tribunanın verilməsi və cəmiyyətlə o körpünün sahmana salınmasında, məncə, bu televiziyanın əhəmiyyəti olar və hesab edirəm ki, bu məsələ də yaz sessiyası dönəmində müzakirəyə çıxarıla bilər.

Üçüncü məsələ. Bu yaxınlarda Dağlıq Qarabağ icmamızın qurultayının keçirilməsini təqdirəlayiq hal hesab edirəm. Orada yeni rəhbərliyin müəyyənləşməsi, səviyyəli, bacarıqlı, diplomatik gedişləri bilən, o məsələlərlə bağlı kifayət qədər sanballı, mövqeyi olan adamların iş başına gəlməsini də alqışlayıram. Hesab edirəm, bu məsələyə dəstək olmaq üçün bu dönəmdə, xüsusən Azərbaycan diplomatiyasının Qarabağ məsələsi ilə bağlı ciddi uğurlarını nəzərə alaraq artıq ciddi iş görülməlidir. Məncə, parlamentdə, – mən həmişə bunu demişəm, bir

daha təkrar eləmək istəyirəm, – daimi olaraq Qarabağ komitəsinin yaradılması çox vacib şərtlərdən biri olar. Bu dönəm üçün bu komitənin yaranması, fəaliyyət göstərməsi, müzakirələrin aparılması həm Dağlıq Qarabağ icmasına və ümumiyyətlə, həm də xarici siyasətdə Dağlıq Qarabağla bağlı məsələlərdə bizim töhfəmiz olar. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli**. Çox sağ olun, cənab Sədr. Hər şeydən əvvəl 2019-cu ilin yaz sessiyasının başlaması münasibəti ilə Siz başda olmaqla, bütün deputat həmkarlarımı təbrik edirəm, parlamentin işinə uğurlar arzulayıram və arzu edirəm ki, parlament bu sessiyada planda nəzərdə tutulan məsələlərin hamısının həyata keçirilməsi istiqamətində sanballı addımlar atsın. Qanunvericilik işləri planına bütün sahələr üzrə çox sanballı layihələr daxil olunub və hesab edirəm ki, bu qanun layihələrinin qəbul edilməsi aidiyyəti sahələrdə hüquqi bazanın inkişaf etdirilməsi və möhkəmləndirilməsində mühüm rol oynayacaqdır. Eyni zamanda, yaşadığımız dövrün məntiqindən çıxış edərək, qeyd etmək istəyirəm ki, son vaxtlar hökumətin fəaliyyətində strateji yol xəritəsindən çıxan islahat xarakterli addımlar intensivləşməyə başlayıb. Bu, Prezident fərmanlarında özünü daha qabarıq şəkildə göstərməyə başlayıb.

Birinci istiqamət kimi, vergi, gömrük sistemlərinin təkmilləşdirilməsini, struktur islahatları ilə bağlı xeyli sayda zəruri qanunvericilik sənədlərinin qəbul edilməsinə yönəlik tədbirlərin həyata keçirilməsini, ikinci isə, Prezident səviyyəsində çox ciddi sosial təşəbbüslərin irəli sürülməsini xüsusi qeyd etmək istərdim. Bununla əlaqədar qanunvericilik planında nəzərdə tutulandan da əlavə, yaz sessiyası dövründə bəzi yeni sənədlər, layihələr də daxil olacaq və onların qəbul edilməsi də islahatların dərinləş-

məsində mühüm rol oynayacaqdır.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, Strateji yol xəritəsindən irəli gələn bəzi qanunvericilik sənədlərinin qəbulunun sürətləndirilməsinə və sosial təşəbbüslərin genişləndirilməsi istiqamətində addımların atılmasına böyük ehtiyac var. Birincisi, Strateji yol xəritəsində göstərilmişdi ki, 2018-ci ilə qədər bank sistemində islahatlar tamamlanmalıdır. Amma Beynəlxalq Bankı çıxmaqla, qalan sahələrdə elə ciddi bir iş görülməyib. Bu prosesi sürətləndirmək üçün zəruri olan şərtlərdən biri problemli kreditlər məsələsinin həllinin sürətləndirilməsidir. Ona görə ki, başqa ölkələrin təcrübəsindən görürük, problemli kreditlər haradasa 3, 5 faiz səviyyəsinə çatanda artıq hökumət buna ciddi yanaşaraq, həmin problemin həllinə yönəlik təcili tədbirlər görür. Amma bizdə problemli kreditlər haradasa kredit portfelinin 14 faizinə yaxınlaşıb, yəni kritik həddən 3–4 dəfə çox olmasına baxmayaraq, bu istiqamətdə addımlar atılmır. Əgər nəzərə alsaq ki, xüsusən haradasa 300–400 manata qədər maaş alan vətəndaşlar öz maaşlarının yarısını bilavasitə kreditin ödənilməsinə yönəldir, məhz belə vəziyyətin qalması həmin orta maaşlı təbəqənin də yoxsullaşmasına gətirib çıxarır. Çünki kreditin ödənilməsindən sonra qalan vəsait 2019-cu il üçün nəzərdə tutulmuş yaşayış minimumundan da aşağı olur. Hesab edirəm ki, yoxsulluğun aradan qaldırılması istiqamətində sanballı addımın atılması problemli kreditlər, xüsusən xarici valyutada olan kreditlər probleminin həllidir. Bu istiqamətdə deputat həmkarımla birlikdə sənədlər hazırlayıb vermişik, orada təşkilati tədbirlərlə yanaşı, həm də qanunvericilikdə olan dəyişikliklər də var. Ona görə də aidiyyəti orqanları həmin sənədlər əsasında bu prosesin həllini sürətləndirməyə

çağırırıq. Çünki indiki şəraitdə banklar hesab edir ki, bunu hökumət həll etməlidir. Hökumət də hesab edir ki, banklarla vətəndaş arasında məsələ olduğuna görə, bunu banklar həll eləməlidir. Amma bu problemli kreditlər məsələsini hökumət yaradıbsa, həmin böhranın aradan qaldırılmasında da hökumət fəal rol oynamalıdır. Biz isə bunu hökumətin, xalqın üstünə atmalı deyil, riski 4 yerə bölməliyik. Dövlətin, bankların, Mərkəzi Bankın və əhalinin arasında bərabər surətdə bölüşdürülməsi variantına getməyi təklif edirik. Hesab edirəm ki, belə variant çox ədalətli olar. Belə variant həm dövlət üçün vacibdir, həm də bilavasitə bankların sağlamlaşması və əhalinin güzəranının yaxşılaşmasına da böyük təkan olacaqdır.

İkinci bir məsələ, hesab edirəm, bu da ciddi xarakter daşıyır. Azərbaycan Prezidentinin xüsusi fərmanı ilə yoxlamalar bəzi istisnalarla dayandırıldı və burada çox böyük irəliləyiş əldə olundu. Yəni yoxlamaların sayı min dəfə azaldıldı və bu, sahibkarlığın inkişafı üçün çox vacib rol oynadı. Amma eyni zamanda, onu da xüsusi qeyd etmək istəyirəm ki, bundan sui-istifadə halları da var. Sui-istifadə edənlər Azərbaycanı keyfiyyətsiz malların satış poliqonuna çevirmək istəyirlər. Bu istiqamətdə də xeyli dərəcədə problemlər yaradıblar. Onları aradan qaldırmaq üçün yeni yaradılan təşkilat, yəni Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətini vacib hesab edirəm. Amma eyni zamanda, bu agentliyin də hüquqi əsasda fəaliyyəti üçün, – artıq bir ildir fəaliyyət göstərir, – xüsusi bir qanunun, yəni qida təhlükəsizliyinə dair bir qanunun qəbulunu və digər qanunvericilik aktlarında da dəyişikliklərin edilməsini vacib hesab edirik.

Növbəti vacib məsələ Strateji yol xəritəsində inhisarçılığın aradan qaldırılması istiqamətində mövcud qanun-

vericilik əsasında Rəqabət Məcəlləsinin qəbul edilməsinin nəzərdə tutulmasından ibarətdir. Əgər bu məsələ Strateji yol xəritəsi səviyyəsində qoyulubsa, aidiyyəti qurumlar tərəfindən bu məcəllənin hazırlanması prosesinin sürətləndirilməsi və Strateji yol xəritəsində göstərilən müddətdə həlli istiqamətində addımların atılmasını vacib hesab edirəm. Bu isə 3 istiqamətdə, həm struktur islahatları, həm problemli kreditlər, həm də inhisarçılığın aradan qaldırılması istiqamətində parlamentlə hökumət arasında dialoqun, işin koordinasiyasının daha da güclənməsinə xidmət edə bilər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Hörmətli millət vəkilləri, bir xahişim var. Bu bizim birinci iclasdır. Məsələ də gündəliyin müzakirəsidir. Müzakirələr üçün gələn iclaslarda yəqin imkanımız olacaq. Sizdən xahiş edirəm, sırf qanunvericilik işləri planı haqqında danışasınız. Sahib Alıyev.

**S.Alıyev**. Təşəkkür edirəm. Hörmətli cənab Sədr, dəyərli həmkarlar, mən də gündəlikdə olan məsələləri dəstəkləyirəm. Bu məsələlərin içərisində mənim diqqətimi ən çox çəkən Səhiyyə komitəsinin xətti ilə iki qanunvericilik layihəsidir ki, bunlardan biri reproduktiv sağlamlıq, digəri isə orqan köçürmələri haqqındadır.

Birincidən başlayaraq demək istəyirəm ki, 150-dən artıq dövlətdə belə bir qanun qəbul edilib. Zamanında bizdə də bu, gündəmdə olub və bununla bağlı ortada müxtəlif yanaşmalar da olub. Amma o üzdən bir az da gecikib. Bir tərəfdən gecikməsinin əhəmiyyəti var, çünki 2017-ci ilin sentyabr ayında BMT-nin toplantılarından birində bununla bağlı qətnamə qəbul olunanda qeyd edildi ki, əvvəlki qanunlarda bir çox çatışmazlıqlar var, xüsusilə donor məsələləri ilə bağlı. Ona görə mən ümid edirəm ki, bizdə bu layihə təkcə orqan köçürülməsi yox, həm də

donorluq haqqında layihə olacaq. Çünki bunlar bir-biri ilə son dərəcə bağlı məsələlərdir. Bu məsələ və eyni zamanda, cənab Prezidentin keçirdiyi müşavirədə vurğulandığı kimi, ümumiyyətlə, icbari tibbi sığorta məsələsi də həllini tapandan sonra Azərbaycanda səhiyyə sistemində yeni bir mərhələnin, bütövlükdə cəmiyyətdə sözün hər iki anlamında bir sağlamlaşma prosesinin başlanacağı qaçılmazdır. Bunu xüsusi qeyd etməliyik. Çünki bu bir tərəfdən kölgə iqtisadiyyatının aradan qaldırılmasına, digər tərəfdən, sağlamlaşmaya gətirib çıxarır. Əhalinin sağlamlıq məsələsində tamamilə yeni bir mərhələ yaranır. Bəzən bizdə səhiyyə kadrlarının hazırlığı ilə bağlı müxtəlif çıxışlar olur, mediada da rast gəlirik. Bizdə, əslində, səhiyyə kadrlarının hazırlığı çox yüksək səviyyədədir. Mən sizə, sadəcə, bir faktı demək istəyirəm, hazırda Almaniyada Azərbaycan səhiyyəsinin yetirməsi olan 500 nəfərdən artıq həkim fəaliyyət göstərir və onlar Almaniyada ən yüksək kateqoriyalı mütəxəssislər kimi qəbul edilirlər. Bunların hamısı Azərbaycanın yetirdiyi mütəxəssislərdir.

Ən çox diqqət çəkən məsələlərdən biri isə az öncə dediyim Reproduktiv sağlamlıq haqqında qanun layihəsidir. Bu, sadəcə, bəzilərinin düşündüyü kimi, sağlıqla bağlı məsələ deyil, bu, əslində, milli təhlükəsizlik məsələsidir. Reproduktiv sağlamlıq məsələsində təkcə ekstrakorporal mayalanma, yəni EKM məsələsi bu prosesin bir tərəfidir. Bizdə bununla bağı milli mentalitet və sair prizmalardan çıxış edərək müəyyən fikirlər səsləndirilir. Amma biz nəzərə almalıyıq ki, bu proses qaçılmazdır. Bizim cəmiyyətə daha çox arzu olunmayıb dünyaya gələn deyil, arzu olunub amma təbii yolla yaranması mümkünsüz olan nəslin varlığı vacibdir. Məhz bu qanun  bu yoldakı bütün maneələri ortadan götürəcək və hazırda Azərbaycan səhiy-

yəsi bu məsələnin öhdəsindən gəlməyə tamamilə hazırdır.

Bir məsələyə də diqqət yetirməliyik ki, bu həm də gələcəkdə uşaq və ana ölümlərinin qarşısını əhəmiyyətli dərəcədə alacaqdır. Ötən ilin statistikasına görə bizdə həmin göstərici bütövlükdə 5 dəfə aşağı düşüb, min nəfər 5 yaşınadək uşaqlar arasında 28 nəfərdən 12,8 nəfərə düşüb. Amma Avropa Birliyində bu rəqəm 1-dir. Yəni həmin qanunun qəbulu bu sahədə də müəyyən yollar açır. Eyni zamanda, nəsilartırma qabiliyyətinin azlığı, sadəcə, qadınlarda rast gəlinən məsələ deyil. Məndə olan məlumata görə, çox təəssüf ki, gənc ailələrdə kişilər arasında bu, daha çox rast gəlinən məsələdir və bu sahədə maarifləndirməyə böyük ehtiyac var. Bunda həyat tərzinin, xüsusilə də internetin arxasında keçirilən vaxtın son dərəcə mənfi fəsadları var. Son araşdırmalara görə, insanlar sutkanın artıq üçdə birini interneti izləməklə keçirirlər və çox maraqlıdır ki, ən inkişaf etmiş ölkələrdə bu göstərici daha aşağıdır. Yaponiyada, Almaniyada, Fransada bu aşağıdır, amma inkişaf etməkdə olan ölkələrdə vaxtını internetdə keçirənlərin sayı çoxdur. Burada da düşündürücü məqamlar var və buna görə də mən üzümü yuxarıda əyləşən həmkarlarıma, media təmsilçilərinə tutub deyirəm ki, bu qanunvericilik məsələləri ilə bağlı sizin üzərinizə maarifləndirmə sahəsində xeyli vəzifə düşür. Bununla bağlı diskussiyalar açılmalıdır və cəmiyyətin yanaşması öyrənilməlidir.

Burada az öncə həmkarım Əflatun Amaşov onlayn media haqqında qanunun vacibliyindən danışdı. Son dərəcə vacib məsələdir. Onlayn media deyəndə, biz, sadəcə, saytları, digər elektron informasiya resurslarını nəzərdə tuturuq. Amma mənə elə gəlir ki, burada sosial şəbəkə də son dərəcə əhəmiyyətlidir. Onlayn media və sosial şəbəkə ilə bağlı ayrıca bir qanun hazırlanmalıdır. Yaxud da bütövlükdə “Kütləvi infor-

masiya vasitələri haqqında" Qanuna yenidən baxılmalıdır. Biz hazırda diqqət yetirəndə görürük ki, sosial şəbəkə vasitəsi ilə sözün əsl mənasında mənəviyyat terrorçuları meydan sulayırlar. Bu orduxanlar, vidadi isgəndərlilər və sair və ilaxır. Bunların, əslində, fiziki terror törədənlərdən fərqi yoxdur və bunlar cəmiyyət üçün daha təhlükəli, daha qorxuludurlar. Bu cür ünsürlərin qarşısı məhz qanunvericilik yolu ilə də kəsilməlidir. Bu baxımdan da, mən bunu son dərəcə əhəmiyyətli hesab edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** 40 dəqiqədir birinci məsələni müzakirə edirik, 5 nəfər adam çıxış edib. Xahiş edirəm, çıxışlar 5 dəqiqədən yuxarı olmasın. O ki qaldı Reproduktiv sağlamlıq haqqında qanun layihəsinə, elə yuxarıda oturanlar, dediyin kimi, oturub baxmışıq ki, bu qanun layihəsi artıq tam hazırdır. Milli mentalitetə uyğun olaraq işlənib, düzəldilib. Ona görə plana salmışıq ki, bu sessiyada qəbul olunsun. Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar, mən də sessiyanın işə başlaması münasibəti ilə hamınızı təbrik edirəm, millətimiz adına uğurlu fəaliyyət arzulayıram. Xoş bir hadisə ilə başlamaq istəyirəm. Bu günlərdə bir ingilis müəllifinin, jurnalistinin bir il yarım ərzində müxtəlif adlar altında Dağlıq Qarabağda apardığı müşahidələr əsasında yazıb dərc etdirdiyi "Narko Qarabağ" adlı kitab, hesab edirəm ki, buna qədərki dövrdə, on illər ərzində xarici müəlliflər tərəfindən yazılan, ilk üçlüyə daxil ola biləcək ən sanballı əsərlərdəndir. Hesab edirəm ki, müəllifi biz axtarıb tapacağıq. Azərbaycanın informasiya məkanında da, diplomatik siyasi aləmdə də mövqeyini gücləndirəcək bir hadisədir və mənim aləmimdə Qarabağ rejimini və erməniləri, keçmiş səhra komandirlərini onun qədər rəzil, rüsvay edən kitablar xarici müəlliflər tərəfindən çox yazılmayıb.

İkincisi, bizim bu aralıq, fasilə dövrümüzdə ölkə rəhbəri

dövlət strukturlarında islahatları tutumlu, genişmiqyaslı bir şəkildə davam etdirməkdə idi. Mən hesab edirəm ki, bunun ali məramı, ali məqsədi bürokratizm zirehinin azaldılması, xalqa şəffaf xidmətin həyata keçirilməsi, büdcə vəsaitlərinin daha uyğun, daha qənaətli və səmərəli istifadə edilməsi və sairdir. Buna qarşı olan müxtəlif qüvvələrin ictimai məkanda reaksiyalarını, necə deyərlər, neytrallaşdırmaq, dövlət başçısının apardığı bu islahatlara dəstək vermək, eyni zamanda, Azərbaycan parlamentinin üzərinə düşən vəzifələrdir.

Hörmətli cənab Sədr çox haqlı olaraq qeyd etdi ki, parlament bu dönəmdə dövlət quruculuğu işində çox aktiv iştirak etməkdədir. Hesab edirəm ki, biz bu islahatları candildən, böyük siyasi güclə müdafiə etməliyik. Həm də ona görə ki, bu, bizim hamımızın və cəmiyyətin maraqlarına uyğundur. O cümlədən bu, məhkəmə sistemini əhatə etməlidir. Çünki o sahəyə, hakimə vətəndaşın inamı aşağı olanda bu istər-istəməz dediyimiz islahatların səmərəsinə təsir edir.

Üçüncü toxunmaq istədiyim məsələ, cənab Sədr, biz illərdir ki, belə bir tendensiyanı görürük, kimlərsə Şəhidlər Xiyabanını da aksiya məkanı kimi seçmək istəyir. Bu yolverilməz bir hadisədir. Şəhidlər Xiyabanı ən azı sükut, anım, xatirə, qürur yeridir. Amma qətiyyən aksiya, protest yeri, meydan deyil. Ona görə də bunu inzibati qanunvericilik aktlarımıza daxil etməli, buna əl atan qüvvələrə cəza verməliyik. Göstərməliyik ki, bu, həm də mənəvi cəzadır. Çünki o insanların bəlkə də bir qisminin ora getməsində rol oynayanlar olub. Amma gəlib oradan sakit keçə bilmirlərsə, könüllü gələn adamları özlərinə tərəfdar göstərmək istəyirlərsə, bu yolverilməz haldır.

Dördüncü, Gürcüstanla bağlı məsələyə toxunuldu, onun üzərində geniş dayanmaq istəmirəm. Qınayıcı mövqe tutmağı da artıq sayıram ki, bizim orada yaşayan insan-

larımız 1994-cü ildən bu yana həmin heykəlin ən azı köhnə variantını görmüşdülər. Bəli, bu illər ərzində Azərbaycan dövləti orada yaşayan söydaşlarımıza ən yüksək köməklikləri göstərməkdədir. Ermənilər o köməyi öz dövlətlərindən almayıblar, bu həqiqətdir.

İkincisi, azərbaycanlılar orada Gürcüstan dövlətinə, dövlətçiliyinə sədaqətli olublar. Heç bir separatizmdə bulunmayıblar, hansı isə bir muxtariyyət tələb etməyiblər. Hərçənd onların buna imkanları vardı və Azərbaycan dövlətinin oradakı gücü, iqtisadi, siyasi imkanları fonunda o azərbaycanlılar da qalxar, nələri isə tələb edərdilər. Amma Gürcüstanın həssas bir dönəmdə yaşadığını o insanlarımız həmişə nəzərə alıb və Gürcüstan hakimiyyəti də bununla hesablaşmalıdır. Ancaq bir heykəl, yəni o yeyiləcək bir əşya deyil, ermənilərin məqsədi, təbii ki, burada deyildiyi kimi, Gürcüstan və Azərbaycan arasındakı münasibətlərə zərbə vurmaqdır. Azərbaycan nə qədər ki Gürcüstanda güclənəcək, iqtisadi mövqelərimiz artacaq, buna qarşı olan qüvvələr də olacaq. Heykəllərlə bizi dayandırmaq mümkün deyil. Ona görə də mən hesab edirəm, biz Gürcüstanda gücümüzü artırmalıyıq. Çünki biz İran,  Rusiya, başqa dövlətlər üzərindən Qərbə çıxa bilmirik. Reallıq bundan ibarətdir ki, Ermənistanla Azərbaycan arasındakı münaqişə Gürcüstanı alternativsiz bir tranzit məkana çevirib. Mən hesab edirəm ki, bizim alternativlərdən danışarkən, – hörmətli Fazil Mustafadan digər həmkarlarımıza qədər, – alternativ, qabaqlayıcı yolları getməliyik. Onda ermənilər bizimlə hesablaşacaqlar.

5 dəqiqəyə keçirməklə bağlı, cənab Sədr, yekun olaraq, sonuncu təklifim. Dövlət sirrinin qorunması barədə. İnformasiya məkanında müşahidə olunan hallardan biri budur ki, rəqib cinaha Azərbaycan dövlətinin müxtəlif hökumət strukturlarının fəaliyyəti ilə bağlı ən mübhəm, bəlkə ən məxfi qrif

altında olan sirləri belə ötürürlər. Bu yolverilməz, onların vəzifə məsuliyyətinə zərbə vuran, məsuliyyət yaradacaq bir haldır.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Mən də Sizi və həmkarlarımı yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm. Çox geniş plan hazırlanıbdır və bu plana mən də səs verəcəyəm. Bir neçə təklifim var ki, bunların da plana düşməsi təqdirəlayiq olardı.

Birinci növbədə istərdim ki, "Siyasi partiyalar haqqında" Qanuna bir dəyişiklik edək və ümumilikdə, bəlkə biz siyasi partiyalar haqqında yeni bir qanun qəbul edək. Söhbət nədən gedir? Ümumiyyətlə, həyat da göstərir, bütün dünyada da olduğu kimi, siyasi partiyaların maliyyə mənbələri ilə bağlı biz bir neçə qərar qəbul etmişik. Amma əfsuslar olsun ki, bir qrup partiya Mərkəzi Seçki Komissiyasına hesabat vermirlər və bunun nəticəsində də guya bunların maliyyə dövriyyəsinin olmaması təsəvvürü yaranır. Amma əslində, ətrafında xeyli sayda köməkçi, cangüdən və digər şəxslər saxlayır. O baxımdan da, maliyyə mənbələri açılmalı, o qaranlıq mənbələr ortaya çıxmalı, bəlli olmalıdır. Pulla adam tutmaq, iğtişaş, qarşıdurma yaratmaq, mitinq, yürüş keçirmək onun mənbəyi məhz o qaranlıq mənbələrdə, o şirədədir. O şirə bağlanmayınca, onlar o cür davam edəcəklər, çünki onlara maddi dəstək olan tərəf tapşırıqlarını da verir. Çünki pul onundur, tapşırıq da onun olmalıdır və bunlar da o tapşırığı can-başla icra etməyə hazırdırlar. Vətəninə, dövlətinə, dövlətçiliyə, xalqına qarşı. Onlar üçün xalq, dövlət anlayışı yoxdur, ancaq maddi anlayış, maddi dəyər var. Mən hesab edirəm, bu, qanunvericiliklə müəyyənləşməlidir və bunun da qarşısı qəti şəkildə alınmalıdır.

Burada bəzi həmkarlarım qeyd etdilər, mən də hesab edi-

rəm ki, o xaricdə oturanlar, orada ermənidən pul alanlar, onların mənbələrinə işləyənlər daxil ilə eynidirlər. Onlar da eyni bezin qırağıdırlar. Yəni başqa bir şey deyillər və bunlar da eyni şəkildə bu fəaliyyəti həyata keçirirlər. Mən hesab edirəm, hamımız birlikdə buna qarşı mübarizə aparmalıyıq. Bəzən Milli Məclis haqqında söz deyirlər, çoxusu yaxasını qırağa çəkir ki, mənə aidiyyəti yoxdur, Siyavuş Novruzova aiddir, yaxud da Bahar Muradovaya, Ziyafət Əsgərova və digər həmkarlarıma aiddir. O, ümumən, Milli Məclisin deputatları haqqında bu sözü deyir. Deyirsə, biz 20 dəfə ondan artıq deməliyik ki, otursun yerində, başa düşsün ki, bu insanlarla, təbii ki, qarşı-qarşı gəlməyə, ümumiyyətlə, fikir mübadiləsi aparmağa, bir məsələni həll etməyə gücü çatan deyil. Bununku ancaq söyüşdür. Söyüş söyürsə, biz də cavabını verməliyik.

Digər məsələ. Burada internet resursları, sosial şəbəkələr və başqaları ilə əlaqədar məsələ qaldırıldı. Mən hesab edirəm, burada biz dəfələrlə bu məsələyə toxunmuşuq. İndi keçmişdə, 1937–1938-ci illərdə donos yazanlar kimi, hamı kiminsə, özünün, qeyrisinin, üçüncü şəxsin adından nəsə yazır. Yazansan, yaz, altından da imzanı qoy. Bilim ki, sən kimsən, oturaq, söhbət edək, məsələni müzakirə edək. Yoxsa, hansısa ad altında, söyüşünü yazır, sonra da çıxıb gedir. Bütün cəmiyyəti də bir-birinə qatırlar. Hesab edirəm, çox düzgün qeyd olundu, bunlar bunu mənəvi terror yolu seçiblər ki, insanları çəkindirsinlər. Heç bir insan bu məsələyə qoşulmasın, kənarda dursun və bu yolla istəyirlər ki, hansı isə yenilik tətbiq etsinlər. Bu, təbii ki, bunların deyil, xaricdə oturan bəzi dairələrin ağlının məhsuludur.

Oqtay müəllim, xahiş edəcəyəm, bir neçə dəqiqə mənə vaxt verəsiniz. Onların məhsuludur, amma onlar bilmir ki, 25, 30 ildir biz elə bu siyasətlə məşğuluq. Onları çox gözəl

bilirik, mexanizmini də, yolunu da, taktikasını da bilirik. Bu yolla bizi ümumi qlobal siyasətimizdən döndərmək mümkün deyil. Bu dövlətin yaradıcısı var, ümummilli liderimiz Heydər Əliyev. Bu gün dövlətimizin başçısı Azərbaycanı çox uğurla inkişaf etdirir və Azərbaycanda inkişaf getdikcə o insanların əhvalı daha da pisləşir. Azərbaycan yeni müqavilələr imzaladıqca, Azərbaycanda iqtisadiyyat artdıqca, sosial problemlər həll olunduqca bunlar tamamilə pis vəziyyətə düşürlər. Elə axırıncı hadisə. Bu gün şəhid ailələri ilə bağlı İnternet səhifələrində Prezidentə nə qədər təşəkkürlər, minnətdarlıqlar var. Elə bir addım atdı ki, bütün məsələlər öz həllini tapdı. Yəni bunlardan sui-istifadə etmək istəyən adamlar başa düşməlidir ki, Azərbaycan ilə bu dildə danışmaq mümkün deyil.

Bu gün Azərbaycan xalqı bütövlükdə Azərbaycan Respublikasının Prezidentinin ətrafındadır, xalq-iqtidar birliyi var. Bu gün həyata keçirilən bütün işlərdə hamı əlbirdir. Mən hesab etmirəm ki, Azərbaycanda dövlət nümayəndələrindən kim isə informasiya ötürür. Bu fikirlə mən razı deyiləm. Sadəcə olaraq, onlar özlərindən belə bir uydurma yaradıb ki, guya hansı isə dövlət nümayəndəsindən, yaxud strukturdan informasiya alırlar. Şübhə, qarşıdurma yaratmağa çalışırlar. Amma bu gün Prezidentin komandası birdir, Milli Məclislə bir yerdədir və birlikdə də bu fəaliyyətimizi davam etdirəcəyik. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz, bilməyəcək də. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Flora Qasımova. Ancaq xahiş edirəm, siyahı var idi, təzədən siyahıya yazılmaq lazım deyil. Günün yarısı birinci məsələyə getdi.

**F.Qasımova.** Çox sağ olun, Oqtay müəllim. Mənim Milli Məclisin yaz sessiyasının qanunvericilik planına qısaca, iki təklifim var.

Oqtay müəllim, 2010-cu ildə mən yenicə millət vəkili seçilmişdim. Ağdərə rayonunun bir məktəb direktoru mənə ünvanladığı məktubda  Ağdərədəki təbii sərvətlərimizi sayır və civədən tutmuş daş kömürə kimi təbii sərvətlərin talan olunması barədə məlumat verirdi. Sonda da Ağdərə rayonunun yenidən bərpa olunması məsələsini Milli Məclisdə qaldırmağı xahiş edirdi. Mən o vaxt hörmətli Fazil Mustafadan xahiş etdim ki, Fazil müəllim, necə edə bilərik, bu talanın, təbii sərvətlərimizin talan olunmasının qarşısını ala bilək. O mənə işğal olunmuş torpaqlar haqqında bir qanun layihəsi verdi və dedi, Flora xanım, oxuyun. Doğrudan da, mən oxudum və sonradan bildim ki, Gürcüstanda və Moldovada belə qanun qəbul olunubdur. Bu qanunun qəbul olunması bəlkə də Qarabağdakı bu talanın qarşısını ala bilərdi. O məşhur mahnıda deyildiyi kimi, Qarabağda, doğrudan, böyük bir talan vardır. Biz mövcud qanunlarımızla, tutaq ki, ermənilərə təsir edə bilmirik. Amma xarici dövlətlərin böyük şirkətləri burada iş qurublar, təbii sərvətlərimiz talanır. Heç olmasa, xarici dövlətlərdəki səfirliklərimiz vasitəsi ilə işğal olunmuş torpaqlar haqqında qanunu onlara çatdırsaq, indiki talanın qarşısı bəlkə alına bilərdi. Mən həmkarlarımdan da çox xahiş edərdim, əgər bizə o talanın qarşısını almağa kömək edəcəksə, gec də olsa, yaz sessiyasına işğal olunmuş torpaqlar haqqında bir qanun layihəsini təqdim edək.

İkinci bir təklifim Ağdərə rayonu haqqındadır. Ağdərə rayonu keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid idi. 1990-cı illərdə o rayon ləğv olundu. Ağdərə rayonu keçmiş Dağlıq Qarabağ ərazisində olan Xankəndi və Şuşadan sonra azərbaycanlıların ən çox yaşadığı üçüncü rayondur. Bilirik ki, Azərbaycan Respublikasının keçmiş Dağlıq Qarabağ Vilayətinin, indiki Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması yaranıbdır. Ağdərəlilər bu icmadan kənarda qalıblar,

onun idarə heyətində üzvləri yoxdur. Gələcəkdə bunların da fəaliyyətinin davam etməsi üçün keçmiş Dağlıq Qarabağ Vilayətinin əhalisinin, eyni zamanda, bunların da Azərbaycanın əhalisi kimi say tərkibinin nəzərə alınmasını, Ağdərə rayonunun yenidən bərpa olunmasını xahiş edərdim.

Bir də Fərəc müəllimin təklifinə mən də tərəfdaram ki, bizim Dağlıq Qarabağ bölgəsinin yeni yaradılmış azərbaycanlı icmasının fəaliyyətinin canlandırılmasına çox böyük ehtiyac var. Mən çox istərdim ki, Milli Məclis üzvlərinin bu icmanın idarə heyəti ilə yaxından təmasları olsun. Eyni zamanda, əsl vəziyyəti, onların arzu və təkliflərini də xaricdə, beynəlxalq aləmdə təbliğ edə, çatdıra bilsinlər. Minnətdaram.

## *Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Elmira Axundova.

**E.Axundova**. Çox sağ olun. Hörmətli sədarət, hörmətli millət vəkilləri! Mən hamınızı yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm, işlərinizdə yeni uğurlar arzulayıram. Yaz sessiyasının planı kifayət qədər dolğun və mənalıdır, vacib və aktual qanun layihələri daxil edilibdir. Mən yeni bir qanun layihəsi, ya da müvafiq qanunlara dəyişiklik edilməsi haqqında təklif vermək istərdim. Mən bir il öncə bu vacib məsələyə toxunmuşdum. İndi yenə də bu məsələyə qayıtmaq istərdim. Çünki bu qışda onlarca bədbəxt hadisə baş verib. Bir qadın, bir ana kimi eşidəndə ki, Bülbülə qəsəbəsində dəm qazından bütöv bir ailə, yəni ana və 3 azyaşlı uşaq birdən-birə zəhərlənərək dünyasını dəyişib, belə xəbərlər məni çox sarsıdır.

Statistikaya görə, bu illərdə dəm qazından dünyasını dəyişən insanların sayı artıq yüzlərcədir. Artıq həyəcan təbili çalmaq lazımdır. Günah 50–60 faiz insanların özündə olsa da, mən qalan günahı yenə də "Azəriqaz" İstehsalat Birliyinin işində görürəm. Söhbət nədən gedir? Mən özüm bütün ömrümü, demək olar ki, köhnə məhəllədə yaşamışam və Sovetski, Yuxarı Naqornı, Mustafa Sübhi küçələrində qazla olan məsələlərə indi də yaxşı bələdəm. Yaxınlarım mənə danışır ki, bu ərazilərdə qaz keçmişdəki kimi qeyri-sabit verilir. Yəni gündüz saatlarında qazın təzyiqi zəifləyir, gecə saatlarında isə 3–4 dəfə güclənir. Ya da soyuq havada görürsən ki, birdən-birə qaz tamamilə kəsilir, əhali isə bu barədə əvvəlcədən məlumatlandırılmır. Bunun nəticəsində onlarla bədbəxt hadisə baş verə bilər və verir. Buna görə də əhali günahkardırmı? Belə bəlaların qarşısının alınmasını düşünərkən ağlımıza ilk növbədə hər bir evdə avtomatik təhlükəsizlik qurğularının yerləşdirilməsi gəlir.

Mən yenə də "Azəriqaz", SOCAR rəhbərliyindən təkidlə xahiş edərdim ki, qaz xətləri yeni qurulan zaman evlərdə sayğacla yanaşı, dəm qazını hiss edən avtomatik təhlükəsizlik qurğusu da yerləşdirsinlər. Artıq mövcud olan abonentlərin mənzillərində isə bu qurğular məcburi qaydada quraşdırılsın. Ən əsası isə "Azəriqaz" İstehsalat Birliyinin əməkdaşları bütün Bakıda genişmiqyaslı yoxlamalara başlamalıdırlar. Evlərdə bacalar, qaz qurğuları düzgün quraşdırılıbmı, onlar normal işləyirmi, zəhərli maddələr evdən çıxırmı və sair. Hansısa abonent təhlükəsizlik qaydalarına əməl etmirsə, "Azəriqaz" əməkdaşları onlara qarşı ciddi tədbirlər görməlidirlər. Mən başa düşürəm ki, həmin əməkdaşlar vətəndaşlara qarşı humanist yanaşaraq, belə hallar aşkar edərkən hərdən onlarla

mülayim davranırlar. Çünki bu abonentlər, əsasən, aztəminatlı ailələrin üzvləridir. Ona görə qaz verilməsini dayandırmırlar, "gələn dəfəyə qədər özünüz bu halları aradan qaldırın" – deyib gedirlər. Amma gələn dəfə artıq gec olur. Həmin vətəndaş və ya onun ailə üzvləri dünyasını dəyişir. Bu problem Azərbaycanda əsasən də qış aylarında çox kəskin qalmaqdadır. Mən onun kompleks şəkildə, özü də dövlət səviyyəsində həllinin tərəfdarıyam. Bununla əlaqədar mən 1 il öncə qanunvericilik təşəbbüsü qaydasında təklif hazırlayaraq sədarətə və müvafiq komitəyə çatdırmışam. Xahiş edirəm, bu təklifi yenidən nəzərdən keçirəsiniz. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Jalə xanıma mikrofon verin.

**J.Əliyeva.** Təşəkkür edirəm. Hörmətli sədarət, hörmətli həmkarlar! Mən də öz növbəmdə yaz sessiyasının başlanması münasibəti ilə hər birinizi təbrik edirəm və ölkəmizə, dövlətimizə, parlamentimizə 2019-cu ilin yeni uğurlar gətirməsini diləyirəm.

Təbii ki, başa vurduğumuz 2018-ci il ölkəmiz üçün yubileylər ili kimi və Azərbaycanın beynəlxalq nüfuzunun artdığı bir il kimi hər birimizin yaddaşımıza daxil oldu. Ölkəmiz dünyanın dinamik inkişaf yolu keçən ölkələri sırasında öz öncül mövqeyini qoruya bildi. Azərbaycan həyata keçirilən uğurlu siyasət nəticəsində milli maraqları qətiyyətlə qoruyan güclü bir dövlətə çevrildiyini bir daha bütün dünyada nümayiş və isbat etdi. Azərbaycan bu gün bölgənin lider dövləti statusunu daşıyır. Biz bu gün dünyaya nümunəvi bir inkişaf modeli təqdim etmişik. Bu model bütün dünyada təqdir edilir və yüksək qiymətləndirilir. Əlbəttə, bu modeli hazırlamaq və hədəflərə çatmaq, bu yolda qarşıya çıxan problemləri bacarıqla dəf etmək bir o qədər də asanlıqla başa gəlməyib. Bu üstün

mövqeyin, dönməz siyasi iradənin arxasında ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti və eyni zamanda, ulu öndər Heydər Əliyevin ölməz dühası dayanır.

Son illər gündəlik həyatımızda, leksikonumuzda tez-tez istifadə etdiyimiz bir söz var, "sürət". Bu da əsassız deyil. Çünki Azərbaycan son illər dünyanın ən sürətli inkişaf mərhələsini yaşayan dövlətlərindən birinə çevrilib. Bəli, Azərbaycan sürətlə inkişaf edir. Elə bir sürətlə ki, bu sürət dostlarını həm sevindirir, həm də yaxşı mənada təəccübləndirir. Düşmənlərini isə qıcıqlandırır, məhvərindən çıxarır. Mən ad çəkmirəm, ancaq davamlı olaraq ölkəmizə sosial şəbəkələrdə, buradan kənarda xaricdə hədyanlar yağdıranlar, əlbəttə ki, öz paylarını götürəcəklər. Qoy onlar qıcıqlanıb, məhvərlərindən çıxıb yenidən uğursuz zolaqlarına düşməkdə olsunlar, Azərbaycan isə hər şeyə rəğmən, hər keçən gün daha da müasirləşməkdə, modernləşməkdə, güclənməkdə, etimad və etibar məkanına çevrilməkdə olsun. Əminik ki, bu inkişaf, bu sürət bizi gec-tez qovuşacağımız günü gözlədiyimiz, həsrətində olduğumuz Qarabağa aparacaq. Bu sürətin, bu inkişafın qarşısında heç nə, heç kəs bizə əngəl ola bilməyəcək.

Yaz sessiyası ərzində müzakirəmizə çıxarılacaq qanunvericilik işləri planı haqqında isə demək istərdim ki, komitələrdə bu qanun layihələri müzakirə edilib. Düşünürük ki, bu qanun layihələrinin hər biri cəmiyyət həyatının, ayrı-ayrı sahələrin tənzimlənməsi baxımından vacibdir, lazımlıdır. Xüsusilə də Kənd təsərrüfatında sığortanın stimullaşdırılması, Turizm haqqında, Ümumi təhsil haqqında, Kinematoqrafiya haqqında, Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında, Yazılı abidələr haqqında qanun layihələri, yolunu çoxdan gözlədiyimiz Reproduktiv sağlamlıq, İnsan orqanlarının donorluğu və

transplantasiyası haqqında qanun layihələrinin qəbuluna ehtiyacımız vardır. İnanırıq ki, bu qanun layihələrinin qəbul edilməsi həmin sahələrdə mövcud olan boşluqların doldurulmasına imkan yaradacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən də həmkarlarıma qoşulub yaz sessiyasının başlanması münasibəti ilə hər birinizi təbrik edirəm. Sizə can sağlığı və uğurlu fəaliyyət diləyirəm. Mən bir məsələ ilə əlaqədar fikrimi bildirmək və təklif vermək istəyirəm.

Bildiyimiz kimi, bir neçə gün bundan öncə Avropa Parlamenti yenə də Azərbaycana qarşı qərəzli münasibətini ortaya qoydu və heç bir əsası olmadan Azərbaycanı ittiham etdi, ən müxtəlif məsələlərdə tənqid hədəfinə çevirdi. Bu bir daha Avropa Parlamentinin Azərbaycana qarşı ikili standartlarını ortaya qoydu və onu nümayiş etdirdi. Söhbət nədən gedir? İndiyə qədər Avropa Parlamenti, ümumiyyətlə, Avropanın beynəlxalq təşkilatları, Avropada fəaliyyət göstərən insan haqları ilə bağlı hüquqi təşkilatlar, qeyri-hökumət təşkilatları Ermənistana qarşı, Ermənistanda baş vermiş olan vandalizmlə, insan ölümünə qədər gətirib çıxaran hadisələrlə bağlı hər hansı fikir söyləməkdən yan keçdi. Bu yaxınlarda Ermənistan həbsxanasında siyasi, həm də jurnalist kimi fəaliyyət göstərən birisi aclıqdan öldü. Görünən odur ki, Avropa beynəlxalq təşkilatları Ermənistanı müdafiə etməklə, əslində, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini stimullaşdırırlar. Necə ola bilir ki, Krım məsələsi ilə əlaqədar dərhal bütün Qərb Rusiyaya qarşı sanksiyalar tətbiq edir və bu sanksiyaları getdikcə sərtləşdirir, lakin uzun illərdən bəri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə

bağlı bu cür ikiüzlülük, ikili standartlar nümayiş etdirir. Bu, əlbəttə, onların xristian təəssübkeşliyini bir daha nümayiş etdirir. Düşünürəm ki, bir gün aclıq edən Mehman Hüseynovu əldə bayraq edərək Azərbaycana qarşı kəskin müddəalarla qətnamə qəbul edən Avropa Parlamentinə parlamentimiz adından etiraz məktubu ünvanlanmalıdır. Etiraz məktubunda Avropa Parlamentindən bu cür ikili standartlara, nəhayət, son qoymaq tələb edilməlidir. Azərbaycan gücləndikcə, beynəlxalq nüfuzu artdıqca, islahatlar dərin xarakter daşıdıqca, Azərbaycanı istəməyən anti-Azərbaycan və antimilli qüvvələr Azərbaycana qarşı öz hücumlarını genişləndirirlər.

Bəlli olduğu kimi, yanvar ayından başlayaraq ölkə Prezidenti idarəçilik sistemini təkmilləşdirmək üçün struktur dəyişikliklərinin aparılmasına start verdi. Bu, heç şübhəsiz ki, Azərbaycan dövlətçiliyini daha yüksək və yeni bir mərhələyə qaldıracaqdır. Bütün bunlar Azərbaycanı istəməyən qüvvələri narahat etməkdədir. Onların içərisində də Avropa Parlamenti xüsusilə fərqlənir. Ona görə mən təklif edərdim ki, Avropa Parlamentinə Milli Məclisin bir etiraz məktubu hazırlansın və onlara göndərilsin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri! Mən də bütün həmkarlarımı yaz sessiyası münasibəti ilə təbrik edirəm. Təbii ki, qanunvericilik işləri planındakı bütün məsələləri dəstəkləyirik. Çox önəmli sənədlər, layihələr öz əksini tapır. Mən bu sessiya çərçivəsində bəzi məsələlərin gündəmdə olması istiqamətində fikirlərimi söyləmək istəyirəm. Bunlardan birincisini həmkarım Əflatun müəllim səsləndirdi. Onlayn media ilə bağlı çox ciddi bir qanun layihəsinin hazırlanmasına

ehtiyac var. Bu bizim həm informasiya müharibəsində gücümüzün artırılmasına, həm də informasiya təhlükəsizliyi ilə bağlı bir sıra vacib məsələlərə öz müsbət təsirini göstərə bilər. Ona görə hesab edirəm, onlayn media ilə bağlı məsələlərin qanunvericilikdə öz həllini tapması çox vacibdir.

İkincisi, Flora xanımın qaldırdığı məsələni dəstəkləyərək vurğulamaq istəyirəm ki, doğrudan da, biz əgər Xarici İşlər Nazirliyinin saytına baxsaq və araşdırma aparsaq görərik ki, nə qədər insanlar işğal altındakı ərazilərimizə qanunsuz şəkildə, Azərbaycan  dövlətinin icazəsi olmadan gediblər. Xarici İşlər Nazirliyi onları arzuolunmaz şəxslər siyahısına salsa da, təəssüf ki, bu insanların sayı azalmır. Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızda bir sıra xarici şirkətlərin fəaliyyəti də dayanmır. Bəzən biz görürük ki, buraya yeni şirkətlər də əlavə olunur. Ona görə, məncə, bununla bağlı həmkarlarımız tərəfindən hazırlanmış qanun layihəsinə baxılması bu istiqamətdəki işlərə bəlkə daha çox töhfə verə,  dövlətimizin mövqelərinin gücləndirilməsinə daha geniş imkanlar yarada bilər. Buna baxılması və müzakirələrin aparılması müsbət olardı.

Digər bir vacib məqam. Qəbul etdiyimiz bəzi qanun layihələri  çox önəmli layihələrdir, vacib məsələlər öz əksini tapır. Amma onların işləməsində, tətbiqində müəyyən problemlər var. Onlara təkrar baxılarkən həyata keçməsi istiqamətində daha hansı mexanizmləri işə salmalıyıq, bu məsələ diqqətdə olsa yaxşıdır. Avropa Şurası Parlament Assambleyasında bu sessiya dövründə təxminən bir gün, günün yarısı əlillərlə bağlı oldu.  Avropanın bütün üzv ölkələrinə əlillərə iş imkanlarının genişləndirilməsi ilə bağlı çağırışlar  oldu. Əslində, Avropa ölkələrində bu istiqamətdə daha çox   görüləsi işlər var. Bizim qanunverici-

likdə də əlillərimizin işlə bağlı imkanlarını artırmaq istiqamətində müddəalar vardır. Kvotalar, o kvotalara əməl edilməsi. Amma təəssüf ki, bəzi qurumlar, şirkətlər bu qanunvericiliyə yetəri qədər əməl etmirlər və əlilləri işə götürməkdən imtina edirlər. Təbii ki, əlillərin problemləri onsuz da ciddidir, işsizliklə bağlı problemlər isə daha da ciddidir. Nəzərə alsaq ki, əlillərimizin içərisində Qarabağ müharibəsində, köçkün həyatının çətinliklərindən əlil olan insanlarımızın da sayı az deyil. Mənə elə gəlir ki, həm qanunvericiliyimizdə əlillərin məşğuliyyəti ilə bağlı məsələlərə təkrar baxılması və qanunun müddəalarının yerinə yetirilməməsi istiqamətində məsuliyyətin gücləndirilməsi məsələsinə də bir daha baxılması yaxşı olardı.

Eyni zamanda, bəzi qanunlarımız var ki, onların həyata keçirilməsində maarifləndirmə məsələsi xüsusi rol oynayır. Maarifləndirmə sahəsində narahatlıqların aradan qaldırılması üçün parlamentimizdə müəyyən dinləmələr keçirilir, müzakirələr olur. Mənə elə gəlir ki, xüsusi qanunların həyata keçməsində maarifləndirmənin gücləndirilməsi üçün KİV rəhbərləri ilə birlikdə bu sessiya çərçivəsində bir müzakirələrin, dinləmələrin keçirilməsi müsbət addım olardı.

Sonda, biz Gürcüstanın millət vəkili olan həmkarlarımıza baş verən təxribatla bağlı etirazımızı bildirmişik. Bu böyük bir təxribatdır və bütün Azərbaycan xalqı, həm də Gürcüstanda yaşayan soydaşlarımız buna etiraz edir. Hesab edirik, ən vacib məsələlərdən biri cənab Sədrin vurğuladığı məsələdir ki, şəhid olmuş Gürcüstan kökənli soydaşlarımızın abidələrinin qoyulmasını gündəmdə ciddi saxlamalıyıq. Bizimkilər torpağı müdafiə ediblər, hər hansı terrorçuya qoyulan abidə olmadığına görə bu məsələyə Gürcüstan hakimiyyətinin də heç bir etirazı olmamalıdır.

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, dəyərli jurnalistlər! Mən də həmkarlarıma qoşularaq Milli Məclisi yaz sessiyasının başlanması münasibəti ilə təbrik edirəm və hər birinizə uğurlar arzulayıram. Burada qanunvericilik işləri planı ilə bağlı çox ətraflı fikirlər söylənildi. Mən də hesab edirəm ki, təqdim olunan layihə kifayət qədər maraqlıdır və bu gün bir çox sahədə ictimai münasibətlərin tənzimlənməsi baxımından bu qanun layihələrinin qəbulu ümumi işimizə xeyli fayda verəcək. İki qanun layihəsini də mən təqdim etmişdim. Biri Peşə bilikləri haqqında, digəri isə Sosial sifarişlər haqqında qanun layihəsidir.

Hörmətli cənab Sədr, payız sessiyasının işlər planının müzakirəsi zamanı bu fikirlər səsləndi. Siz Milli Məclisin Aparatına bununla bağlı tapşırıq verdiniz ki, təklif olunan qanun layihələrinə baxılsın, müzakirə edilsin və işlər planına daxil edilsin. Mən fürsətdən istifadə edib, cənab Sədr, Sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm, çox sağ olun ki, belə bir təşəbbüsə dəstək verdiniz. Əminəm ki, biz müvafiq komitələrlə, eyni zamanda, Milli Məclisin Aparatı, müvafiq şöbələri ilə birlikdə hər iki qanun layihəsini çox müfəssəl qaydada hazırlayıb Milli Məclisin müzakirəsinə təqdim edəcəyik. Hesab edirəm, bu qanun layihələri bütövlükdə cəmiyyətin maraqlarına xidmət edən təşəbbüslərdir.

Hörmətli cənab Sədr, mən həmkarlarımızın qaldırdığı bir neçə məsələyə qısa münasibət bildirmək istərdim.

Bunlardan biri hörmətli Fazil Mustafanın qəbul olunan qanunların icrası ilə bağlı qaldırdığı məsələ idi. Prinsip etibarı ilə biz, əlbəttə, qəbul etdiyimiz qanunların icrasının tam şəkildə həyata keçirilməsində maraqlı olmalıyıq. Bu istiqamətdə Konstitusiyada üzərimizə düşən missiyanı və vəzifələri yerinə yetirməliyik. Amma bəzən verilən təkliflər tam dəqiq olmur. Məsələn, "İctimai iştirakçılıq haqqında" Qanunla bağlı fikir söylənildi. Mən hesab edirəm, "İctimai iştirakçılıq haqqında" Qanun çox gözəl qanundur və uğurla da icra olunur. Məlumat üçün deyim ki, indiyə qədər 10 nazirlik və komitədə, 7 rayon və şəhər icra hakimiyyətinin nəzdində və 5 universitetdə ictimai şuralar yaradılıbdır və fəaliyyət göstərir. Demək, qanun artıq icra olunur və qanunun müddəaları, təbii ki, qərar qəbulu prosesində ictimai iştirakçılığın təmin olunmasına öz töhfəsini verir.

Digər bir məsələ, hörmətli həmkarım Fəzail Ağamalı tərəfindən qaldırıldı. Söhbət Ermənistanda uzun müddət aclıq aksiyası nəticəsində ölmüş siyasi məhbus Miger Yegiazaryana münasibətdə beynəlxalq təşkilatların tutduğu mövqe ilə bağlıdır. Təbii ki, bu, bizi çox üzür, çox narahat edir. 52 gün aclıq aksiyası keçirən, siyasi motivlərlə həbsə atılan bir nəfər fəala indiyə qədər heç bir beynəlxalq təşkilat münasibət bildirməmişdir və buna laqeyd qalmışdır. Əlbəttə ki, bu, açıq şəkildə ikili, selektiv yanaşmanın bariz nümunəsidir və Azərbaycan parlamenti dəfələrlə bu haqsızlığa qarşı öz səsini qaldırıbdır. Hesab edirəm ki, bundan sonra da biz bütün platformalardan istifadə edərək bu faktı dünya ictimaiyyətinə təqdim etməkdə davam etməliyik. Ancaq bununla yanaşı, müsbət məqamlar da var. Mən istərdim onu da sizin diqqətinizə çatdırım.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bilirsiniz ki, bir neçə gün bundan öncə ATƏT Parlament As-

sambleyasının İnsan hüquqları və demokratiya komitəsinin sədri xanım Marqarita Helen bu məsələni xüsusi nəzarətə götürdü və bu faciəli ölümün nəticələrini və səbəblərini araşdırmaq üçün rəsmi Yerevana bir sorğu göndərdi. Hesab edirəm, bu, artıq məsələnin ATƏT Parlament Assambleyasının gündəmində olması üçün çox yaxşı bir başlanğıcdır. Hesab edirəm ki, son vaxtlar, ümumiyyətlə, ATƏT Parlament Assambleyası bu məsələdə maksimum ədalətli və obyektiv mövqe sərgiləyir. ATƏT Parlament Assambleyasının son zamanlar, ümumiyyətlə, Azərbaycanla bağlı məsələlərdə həssaslıq nümayiş etdirməsini, eyni zamanda, bizim üçün maraqlı olan digər mövzularda dəstəyini hiss edirik. Mən fürsətdən istifadə edib, bu ali tribunadan ATƏT PA-nın prezidentinə və baş katibinə minnətdarlığımı bildirmək istəyirəm.

Bilirsiniz ki, bizim qış sessiyamız var. Hörmətli Bahar xanımın rəhbərliyi ilə bizim nümayəndə heyəti orada iştirak edəcək. Əminəm ki, biz bu və digər məsələlərin ATƏT PA-nın gündəliyində olmasına çalışacağıq. O cümlədən də Ermənistanda aclıq aksiyası nəticəsində həlak olmuş Miger Yegiazaryanın məsələsini də biz, təbii ki, orada qaldıracağıq. Mən qanun layihələrinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İqbal Məmmədov.

**İ.Məmmədov.** Təşəkkür edirəm. Hörmətli Oqtay müəllim, hörmətli deputat həmkarlarım! Başa vurduğumuz tətil vaxtı fürsətdən istifadə edib, Lerik rayonunda seçicilərimlə görüş keçirtdim və mən onların fikirlərini burada səsləndirməyə söz vermişəm. Buna görə də, icazənizlə, bir neçə məqama toxunmaq istəyirəm.

Bildiyiniz kimi, dünyamız qloballaşıb, dövrümüz internet və sosial şəbəkələr dövrüdür. Bu gün ölkəmizin ən ucqar

yaşayış məntəqəsində belə istənilən vətəndaşımız bir düyməyə basmaqla özünü hər hansı şəbəkənin içərisində görür və media ilə ünsiyyət halında olur. Bu gün vətənimizi sevməyən, ona düşmənçilik bəsləyən müəyyən qüvvələr var və onlar  məcazi mənada aktiv şəkildə fəaliyyət göstərirlər. Çox təəssüflə qeyd edirəm ki, bu tip qüvvələrin oyununa gələn, onların məkrli planlarına alət olan həmvətənlərimiz də var. Tənqid normal və inkişaf üçün vacib şeydir. Ulu öndərimiz zamanında kütləvi informasiya vasitələrində senzuranı ləğv etməklə tənqidə yol açdı və bir çox sahənin inkişafına zəmin yaratdı. Ancaq təhqir yolverilməzdir. Media və ya sosial şəbəkələr vasitəsi ilə dövlət məmurlarını təhqir etmək, həyata keçirilən işlərə qarayaxmalar  kütləvi xarakteri daşıdığı üçün mənəvi terrordan başqa bir şey deyildir. Ürək ağrısı ilə qeyd edirəm ki, dövrümüzün yüksək intellekt və inkişaf vasitəsi olan interneti bizdə bəzi qüvvələr öz pis əməllərinin alətinə çevirib. Bütün bunlar seçicilərimizi, soydaşlarımızı, vətəndaşlarımızı olduqca narahat edir.

Bir ölkəni təmsil edən, xalqın böyük əksəriyyətinin səsverməsi nəticəsində seçilmiş dövlət başçısını təhqir etmək elə o xalqı təhqir etməkdir və heç bir müstəvidə baş ucalığı deyildir. Siyasi mübarizə, müxalifətçilik demokratiyanın bünövrə daşıdır. Ancaq əxlaq çərçivəsindən kənara çıxarılan istənilən mübarizə mənəviyyatsızlıq və əqidəsizlikdir. Bu gün ölkəmizdə aparılan islahatları görməmək, gözardı etmək mümkün deyildir. Vətəndaşına, insanına, bu torpaq uğrunda canından keçmiş şəhidinə, onların varislərinə, müharibə əlillərinə, iştirakçılarına göstərilən qayğı, hörmət bəlkə də dünyanın heç bir ölkəsində Azərbaycan səviyyəsində deyil.

Möhtərəm Prezidentimiz tərəfindən son dövrlərdə imzalanmış fərman və sərəncamlara baxarkən, şəhid ailələri

və müharibə əlillərinin sosial təminatının yaxşılaşdırılması, onların mənzillərlə təmin olunması istiqamətində göstərişlərini, onlarla görüşü zamanı nümayiş etdirdiyi ehtiramı, nəzakəti müşahidə edərkən ölkəmiz adına qürur hissi yaşayırıq. Bizim onsuz da, Ermənistan kimi düşmənimiz və hamımıza bəllidir ki, bu düşmənin kifayət qədər xarici havadarları var.

Mən tribunadan istifadə edib damarında azərbaycanlı qanı axan hər kəsə müraciət edir, bu düşmənlərin aləti olmamağa, vətənimizə qarşı oynanan hər hansı oyunun içində olmamağa çağırıram. Bu, tək mənim deyil, bütün seçicilərimin xahişidir. İstisnasız olaraq görüşdüyümüz hər bir vətəndaşımız bu fikirləri səsləndirir və bizdən hansısa addım atmağı xahiş edir. Məncə, bu mövzuda qanunvericiliyimizə müəyyən dəyişiklik etməyin vaxtı çatıb. Saxta adlardan istifadə edib sosial şəbəkələrdə dövlətimizi, dövlət başçımızı, vətəndaşımızı təhqir edən, əxlaqsız fikirlər səsləndirən şəxslər mütləq cəzalandırılmalıdır. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Əli Hüseynli buyursun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli cənab Sədr. Hörmətli həmkarlar, yaz sessiyasının qanunvericilik işləri planında gördüyünüz kimi, bizim komitə tərəfindən də bir çox əhəmiyyətli qanun layihələrinin təqdim olunması nəzərdə tutulub. Bunlar dövlətçilik atributları, dövlət quruculuğu məsələləri ilə bağlı fundamental layihələrdir. Eyni zamanda, bugünkü iclasda hörmətli həmkarlarımız hüquq və dövlət quruculuğu ilə bağlı qanunların tətbiqi ilə də bağlı bir sıra məsələlər qaldırdılar və onlara, cənab Sədr, münasibətimizi bildirmək istəyirəm.

Haqlı olaraq söylədilər ki, son dövrlər bir sıra hallarda radikal müxalifət hər hansı bir aksiyanı qanunsuz mitinqə

çevirmək niyyəti ilə fəaliyyət göstərir. Bilirsiniz ki, 2008-ci ildə "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna biz fundamental və əhəmiyyətli dəyişikliklər etdik və onun icrası öz nəticələrini göstərdi. Amma əhalimiz bilməlidir ki, radikal müxalifətin məqsədi nə Rəsulzadənin ad gününü, nə də ki, 20 yanvar şəhidlərini anmaqdır. Onların məqsədi istənilən belə bir tədbirdə qanun pozuntusu, iğtişaş yaratmaqdır və məqsəd icazəli mitinq keçirmək deyil, hər bir halda mövcud ictimai-siyasi sabitliyi pozmaqdır. Amma bir daha xüsusi vurğulamaq istəyirəm, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna 2008-ci ildə etdiyimiz dəyişikliklər bu cür halların qarşısını almaqdan ötrü əsaslı hüquqi bazadır və qeyd etməliyəm ki, hüquq mühafizə, icra, xüsusən də polis orqanları bu işin öhdəsindən çox yüksək bacarıqla gəlir. Amma düşünürəm ki, digər bir məsələ, internet resurslarında şərəf və ləyaqətin təhqir olunması, böhtan atılması məsələsi əsaslı olaraq qaldırıldı. Onu da xatırlatmaq istəyirəm ki, hörmətli həmkarlar məhz sizin, ictimaiyyət nümayəndələrinin təklifləri nəzərə alınaraq, 2016-cı ilin payız sessiyasında bizim komitə tərəfindən Cinayət Məcəlləsinin 148-1-ci maddəsi təqdim olundu və siz də tamamilə düzgün olaraq ona səs verdiniz. "İnternetdə saxta profil və adlardan istifadə etməklə böhtan atma və təhqir etmə". Ona görə cərimə sanksiyası və azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmuşdur.

Təcrübə göstərir ki, bu qanunun tətbiqində boşluqlar mövcuddur və hesab edirəm, ümumiyyətlə, onun tətbiqi yaxşı halda deyil və bundan sui-istifadə olunur. Baxın, bir neçə dəfə bu misallar çəkildi. Şəhid ailələrinə, onların təminatı ilə bağlı cənab Prezidentin, Birinci vitse-prezidentin diqqəti, qayğısı və qəbul olunmuş qərarı var. Təbii ki, müəyyən bir araşdırma, bir dövr tələb olunur. Müvafiq

icra hakimiyyəti orqanları bunu həyata keçirir, cənab Prezidentə məruzə olunur və Prezident tərəfindən bu şəxslər qəbul olunur. Ölkə Prezidentinin, Birinci xanımın alicənablığı, mədəniyyəti, şəhid ailələri ilə davranışı, təbii ki, ictimaiyyət, xalqımız tərəfindən yüksək qəbul olunur. Amma baxın, görün internetdə bu radikal müxalifətin gerizəkalı fikir daşıyıcıları necə davranırlar. Şəhid ailələrini təhqir edirlər ki, nə üçün cənab Prezidentlə şəkil çəkdirirlər, onunla əl verib görüşürlər?

Xalqımız bilməlidir ki, bu insanlar Azərbaycan hakimiyyətinə, hakimiyyət nümayəndələrinə müxalif deyillər, onlar Azərbaycan xalqına, Azərbaycan dövlətinə nifrətlə yanaşırlar. Azərbaycanda bu qədər şəhidlərin olmasının yeganə səbəbkarı 1992-ci ildə hakimiyyətdə olanlardır. Əgər onlar o zamankı parlament sədri, daxili işlər naziri, müdafiə naziri heç olmasa öz doğulduqları, böyüdükləri kəndi, rayonu, ailələrini qoruya bilsə idilər, bu qədər şəhid olmazdı. Baxmayaraq ki, Naxçıvan həm Ermənistan, həm də o zamankı Azərbaycanın hakimiyyəti – Xalq Cəbhəsi tərəfindən blokadaya salınmışdı, sovet qoşunları Naxçıvandan çıxarılmışdı, amma Heydər Əliyev Naxçıvanı qorudu. Bu insanlar heç öz kəndlərini, rayonlarını qoruya bilməyiblər. Minlərlə insanlar ordudan fərari olub. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra o insanlarla bağlı əfv fərmanı verildi. Hamısı döyüşə qayıtdılar və çoxları qəhrəmanlıq nümayiş etdirdilər. Bunları söyləməklə bildirmək istəyirəm ki, xalqımız da bilməlidir ki, hər bir belə təhqir Azərbaycan xalqının ünvanınadır və cənab Sədr, hesab edirəm, qanunvericilik baxımından bu addımı biz zamanında, düzgün olaraq atmışıq. Həmkarlarımızın yeni təkliflərini də öyrənəcəyik ki, bu cür halların qarşısı alınsın. Amma indiki halda düşünürəm, nəinki qanun-

vericilikdə, adını çəkdiyim o qanuna etdiyimiz dəyişikliyin tətbiqi ilə bağlı tədbirlər görmək lazımdır. Qanunvericiliyi, bir daha həmin maddəni səsləndirdim. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Həqiqətən, biz qanunları müfəssəl işləyirik, sonra bu qanunların tətbiqində problemlər çıxır. Bir çox məsələlər qalxdı. Tütün haqqında biz qanun qəbul elədik, Nazirlər Kabinetinin qərarı oldu, cərimələr yazıldı. Onlar da hələ axıra kimi yerinə yetirilmir. Eləcə də bizim Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə mən tapşırmışam ki, bu məsələlərə də yenidən baxaq, fikirləri dəqiqləşdirək. Nə isə bir tədbir görmək lazımdır ki, belə təhqirlər, belə məsələlər ortadan qaldırılsın. Mən xaricdə yaşayanları demirəm, hərdən açıb oxuyanda adam xəcalət çəkir, nələr yazırlar. Milli Məclisin, dövlət rəhbərinin adına ağızlarına gələnləri yazırlar. Ancaq biz bu təhqirə yol verən daxildə olanlar barədə fikirləşməliyik ki, bunun qabağını necə alaq? Millət öyrənməlidir ki, belə təhqirlər olmasına bizim mentalitet yol vermir. Onlar hər şeydən keçiblər artıq.

Çox sağ olun. Gündəliyin 2-ci məsələsinə – Qanunvericilik işləri planı haqqında layihəyə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Gündəliyin 4-cü məsələsi. Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında. Bilirsiniz ki, bizim iki komitədə sədr müavinləri yeri boşaldı. Bizim həmkarlarımız başqa vəzifələrə getdilər. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə Məlahət İbrahimqızı və Gənclər və idman komitəsinə Şahin İsmayılov təklif olunur. Siyahı sizdə var. Əgər etiraz yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---:|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Biz komitə sədrlərinin təsdiqinə çox diqqətlə yanaşdıq. Mən sizləri təbrik edirəm. İnanıram ki, öz komitənizdə işin güclənməsinə böyük töhfə verəcəksiniz. Sağ olun, təbrik edirəm sizi.

Gündəliyin 5-ci məsələsi "Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında" Sazişin təsdiq edilməsi barədədir. Buyursun Rəfael Hüseynov.

**R.Hüseynov,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Hörmətli millət vəkilləri, diqqətinizə təqdim edilən "Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları", eləcə də həmin fondun yerləşmə ölkəsi haqqında sazişlər bir-biri ilə əlaqədardır. Ona görə də etiraz etməsəniz, mən

onları birlikdə təqdim edərdim və ayrı-ayrı səsə qoyardıq.

Bu gün dünyanın siyasi xəritəsində altı müstəqil türk dövləti vardır. Bu möhtəşəm sıra XX əsrin son 10 ilinə qədər insana bir röya kimi gəlirdi. Bu, bizim böyük tarixi nailiyyətimizdir. Müasir Azərbaycan dövlətinin qurucusu unudulmaz Heydər Əliyev 1990-cı illərdə türk dövlətləri arasında birliyin, yaxınlaşmanın, əməkdaşlığın artmasına çox önəm verirdi və əsas hədəflərindən də biri bundan ibarət idi ki, Azərbaycan bu birlik içərisində aparıcı mövqelərdə olsun, mərkəz yerdə dayansın. Səbəbsiz deyildi ki, türk dövlət başçılarının bir çox sammitləri Azərbaycanda keçirilirdi və həmin sammitlər çərçivəsində də bu xalqları, türkdilli dövlətləri birləşdirən dəyərlər, şəxsiyyətlər ilə bağlı toplantılar gerçəkləşirdi. Həmin dövlətçilik modeli bu gün  Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir və müzakirənizə çıxarılan sazişlər də elə həmin xəttin davamı kimi dəyərləndirilməlidir.

2009-cu il oktyabr ayının 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısı keçirilirdi və həmin sammit əsnasında Türk Mədəniyyəti və İrsi Fondu təsis edildi. 2012-ci ilin avqustunda Bişkek şəhərində fondun nizamnaməsi imzalandı və 2018-ci ilin sentyabr ayında isə Bişkek şəhərində indi müzakirənizə çıxarılan "Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında" Saziş Qazaxıstan Respublikasının, Qırğızıstan Respublikasının, Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının hökumət təmsilçilərinin imzalaması ilə gerçəkləşdi. 2018-ci il noyabr ayının 8-də Bakı şəhərində Azərbaycan hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında  Saziş imzalandı. Həmin sazişə əsasən də fondun yerləşmə ölkəsi olaraq Azərbaycan və iqamətgahının yerləşmə yeri olaraq Bakı  şəhəri seçildi.

Düşünürəm ki, Azərbaycan bu imkanlardan istifadə edərək Türk Mədəniyyəti və İrsi Fondunun daha da irəliləməsi, dövlətlərimiz arasında əlaqələrin daha da artmasına öz böyük töhfələrini verəcəkdir. İnanıram ki, siz də çox böyük əhəmiyyət daşıyan bu sazişlərin hər birinə məmnuniyyətlə səs verəcəksiniz.

**Sədrlik edən.** Buyursun Aytən Mustafazadə.

**A.Mustafazadə.** Təşəkkür edirəm, Oqtay müəllim. Mənim iki kəlmə söz deyəcəyəm. Mən bu layihələri dəstəkləmək və qeyd etmək istəyirəm ki, Türk Mədəniyyəti və İrsi Fondu yaradıldığı bir il ərzində çox böyük işlər görüb və görməkdədir. Türkdilli dövlətlərin irsinin qorunmasında çox geniş planları və layihələri var. Bu il ərzində məhz bizim Hüquq və İnsan Haqları İnstitutu fondla birgə böyük bir layihəni başa çatdırmışdır. İndi artıq nəşr prosesi başa çatmaq üzrədir. "Azərbaycanın zəbt olunmuş ərazilərində tarixi və mədəni irsi", "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər" kitabları 4 dildə, fransız, ingilis, rus və Azərbaycan dillərində və böyük kataloq nəşr edilmişdir. Bu nəşrlər məhz YUNESKO-nun və Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə işıq üzü görmüşdür. Bu il ərzində həm də bu fondun dəstəyi ilə çox böyük layihə olaraq "Kitabi-Dədə Qorqud"un baş qəhrəmanının adını daşıyan Dədə Qorqud kamera orkestri də təşkil olunmuşdur. Bu da dünyada Azərbaycan irsinin yayılmasına çox böyük töhfə verəcəkdir. Mən həmkarlarımdan xahiş edirəm bu layihəni dəstəkləyək. Fonda uğurlar arzu edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 5-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 6-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 7-ci məsələsi də bu qəbildən olan məsələdir. “Türk Akademiyasının maliyyə qaydaları haqqında” Sazişin təsdiq edilməsi barədə. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, “Türk Akademiyasının maliyyə qaydaları haqqında” Saziş Türk Akademiyasının büdcəsinin maliyyələşdirmə mənbələrini, formalaşdırılma qaydasını, icrasını və hesabatlığını müəyyən edir. Sazişə əsasən Akademiyanın büdcəsi pul və ya digər formada maliyyə gəlirləri və xərclərini əhatə edir. Akademiyanın büdcəsinin 2 hissədən, illik gəlirlər və xərclərdən ibarət olduğu bildirilir. Büdcə Akademiyanın prezidenti tərəfindən idarə edilir. Onu da qeyd etmək

lazımdır ki, Akademiyanın maliyyə fəaliyyəti üzrə xarici audit keçirilməsi də nəzərdə tutulmuşdur. Ona görə də millət vəkillərindən çox vacib bir Akademiya ilə əlaqədar olan Sazişə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. İsa Həbibbəyli.

**İ.Həbibbəyli.** Hörmətli Sədr, hörmətli millət vəkilləri, 2009-cu ilin 3 oktyabrında Naxçıvan şəhərində keçirilən Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması türk dünyasında elm, təhsil, mədəniyyət və digər sahələrdə əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə və koordinasiya işlərinin tənzimlənməsinə böyük töhfələr verir. Ötən müddət ərzində görülən işlər bir daha sübut edir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türk dünyasının YUNESKO-su vəzifəsini uğurla həyata keçirməkdə davam edir və çox əhəmiyyətli bir qurumdur. Artıq bu qurumun tərkibindəki Türkdilli Dövlətlərin Parlament Assambleyası – TÜRKPA, eyni zamanda, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası türkdilli ölkələr coğrafiyasında və ümumən dünyada türkoloji mühitdə faydalı bir qurum olduqlarını ispat ediblər. Türk Akademiyası keçən dövr ərzində həm də beynəlxalq Türk Akademiyası statusu qazanmışdır. 2015-ci ildən Türk Akademiyasının bazasında türkdilli ölkələrin Türk Dünyası Elmlər Akademiyaları Birliyi fəaliyyət göstərir və mövcud əsasnaməyə görə hər il ölkələrdən biri həmin birliyə rəhbərlik edirik. Məlumat üçün bildirim ki, bu il Türk Dünyası Elmlər Akademiyaları Birliyinə Azərbaycan Elmlər Akademiyası sədrlik vəzifəsini həyata keçirir.

Bu vaxta qədər türk Akademiyasının bazasında həm türkdilli ölkələrin hər birindən, həm də beynəlxalq aləmdən, YUNESKO və başqa qurumların, yaxından işti-

rakı ilə türkologiya, türk xalqları ilə bağlı çox böyük əks-səda doğuran tədbirlər həyata keçirilmişdir. Bu Akademiya türkdilli ölkələrin ziyalılarının, alimlərinin inteqrasiyası, birgə fəaliyyəti baxımından da, çox faydalar verir. Eyni sözləri Türk Mədəniyyəti və İrsi Fondunun səmərəli fəaliyyəti haqqında da demək mümkündür. Mən bu mənada təqdim olunan qanun layihəsinə səs verirəm və bunu əhəmiyyətli bir addım hesab edirəm.

**Sədrlik edən**. Sağ olun. Xahiş edirəm, gündəliyin 7-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 8-ci məsələsinə bir neçə komitədə baxılıb. Bu, "Sərhəd qoşunları" adının "Sərhəd mühafizə orqanı" adına dəyişdirilməsi ilə əlaqədar bir çox qanunda dəyişikliklərlə bağlıdır. Buyurun, Ziyafət Əsgərov.

**Z.Əsgərov,** *Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, təqdim olunmuş qanun layihələrində dəyişiklik edilməsinin əsas məqsədi "sərhəd qoşunları" anlayışının "sərhəd mühafizə orqanları" ilə əvəz edilməsi ilə bağlıdır. Bu da, ondan irəli gəlir ki, 2018-ci il 12 iyunda biz "Sərhəd qoşunları haqqında" Qanuna dəyişiklik etdik və hazırda "Sərhəd qoşunları haqqında" Qanun "Sərhəd

mühafizə orqanları haqqında" Qanun adlanır. Bununla bağlı, bu uyğunlaşmanın həyata keçirilməsi üçün bir neçə qanunda, o cümlədən "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və Qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" dəyişikliklər edilir. Ona görə çox xahiş edirəm, bu qanun layihəsinə müsbət fikir bildirəsiniz. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, gündəliyin 8-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bu qəbildən gündəliyin 9-cu məsələsinə də münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti iki məsələ, 10-cu və 11-ci məsələlər bir zərfdə gəlib. “Büdcə sistemi haqqında” Qanunda, eləcə də “Dövlət borcu haqqında” Qanunda dəyişiklik edilməsi barədə. Buyurun, Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Bilirsiniz ki, biz 2018-ci il noyabrın 30-da həm “Büdcə sistemi haqqında”, həm də “Dövlət borcu haqqında” qanunlar qəbul etmişdik. Yeni qanunun keçid müddəalarına görə bu qanunun 1.5.2-ci, 1.7.1-ci və 1.7.2-ci maddələri 2018-ci ilin iyulun 1-dən tətbiq edilir. Qanunun digər maddələri isə 2018-ci ilin yanvarın 1-dən qüvvəyə minir. Ona görə qanun layihəsində olan dəyişiklikləri nəzərə almağınızı, xahiş edirəm. Eyni sözləri “Dövlət borcu haqqında” Qanunla bağlı da demək olar.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən**. Aydındır. Çox sağ olun. Əgər çıxış eləmək istəyən yoxdursa, 10-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

“Dövlət borcu haqqında” Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, Mənzil Məcəlləsinin 18-ci maddəsində dəyişiklik nəzərdə tutulur. “Qanunvericilikdə” sözü “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən” sözləri ilə əvəz edilir. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən**. Sağ olun. Əgər başqa bir fikir yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədədir. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Ziyafət müəllim. Bu dəyişiklik texniki xarakterlidir. Belə ki, bilirsiniz "Qızıl ulduz" medalı orden və medalların sırasında qeyd olunmamışdır. Baxmayaraq ki, Milli Qəhrəman adının verilməsi, belə deyək, həm də "Qızıl ulduz" medalının verilməsi ilə tamamlanır. Belə bir texniki dəyişiklikdir. Hesab edirəm ki, səs verib qəbul etməkdə problem yoxdur.

**Sədrlik edən**. Qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, bir sıra hallarda inzibati orqanlar arasında səlahiyyətlə, aidiyyətlə bağlı mübahisələr yaranır. Son dövrlərdə bu, bəzən müşahidə olunurdu və bu

məsələnin həlli ilə bağlı müzakirələr də olmuşdu, qərarlar da qəbul edilmişdi. Amma bunlar tam səmərəli olmurdu və problemi də sona qədər həll etməmişdi. Hesab edirəm ki, cənab Prezident tərəfindən təklif olunmuş "İnzibati icraat haqqında" Qanuna bu dəyişiklik problemi kökündən həll edəcək. Belə ki, təklif olunur,  inzibati orqanlar arasında aidiyyət və səlahiyyətlə bağlı mübahisələrin həlli qaydası müvafiq icra hakimiyyəti orqanı, bu halda isə icra hakimiyyətinin rəhbəri ölkə Prezidenti tərəfindən müəyyən olunur. Bu, təbii ki, məsələnin tamamilə ədalətli, həm də qanunauyğun həlli olar. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən**. Çingiz Qənizadə, buyurun.

**Ç.Qənizadə**. Təşəkkür edirəm. Mən komitə iclasında iştirak edə bilməmişəm, Strasburqda AŞPA-nın yanvar sessiyasının tədbirində idik. Ona görə istəyirəm ki, öz mövqeyimi bildirim.

"İnzibati icraat haqqında" Qanunun 4-cü maddəsinin 4.3 bəndinə əlavə olunması, mən hesab edirəm ki, bir qədər düşünməyə vadar edir. Söhbət nədən gedir? Söhbət ondan gedir ki, əvvəllər bu mübahisəli məsələlərin həll olunması cənab Prezidentin  2015-ci il 4 may tarixində vermiş olduğu fərmanla Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin Əsasnaməsi ilə tənzimlənirdi və onlara həvalə olunurdu. Bununla bağlı müraciətlər  bizə də daxil olurdu ki, komitə tərəfindən zəbt olunmuş torpaqlarla bağlı məhkəmələrə müraciətlər vardır. Qanunazidd məsələlərin qarşısının alınması üçün müəyyən hərəkətlər həyata keçirilirdi və bu, əsasnamənin 3.0.31-ci bəndi ilə tənzimlənirdi. Təbii, biz də cavab yazırdıq ki, bu, tam qanunauyğundur və yerlərdə baş verən əmlak və torpaqla  bağlı məsələlər elə bu səviyyədə də həllini tapmalıydı. Lakin indi "İnzibati icraat haqqında" Qanunun 4.3-cü maddəsin-

də bu mübahisəli məsələlərin həllini biz sanki, cənab Prezidentə həvalə edirik. Axı, bu gün yerlərdə, rayonlarda torpaqlarla da bağlı islahatlar aparılır, torpaqların təyinatı, təyinatının pozulması, təyinatı pozulmuş torpaqların üzərində tikililərlə bağlı çoxsaylı mübahisəli işlər gedir, məhkəməyə müraciətlər olur. Belə olan halda, bu mübahisələrin bir tərəfi də vətəndaş, sahibkar və digər qurumlar da ola bilər və olduğu halda bu şikayətlərin, mübahisəli məsələlərin cənab Prezidentə ünvanlanıb, Prezident Aparatında həll olunmasının mənasını başa düşə bilmirəm. Axı, normal şəkildə, demokratik prosesdə bu məsələlər məhkəmə qaydasında həll olunur. İndi təsəvvür edin ki, İmişlinin hansısa bir kəndində torpağın təyinatı pozulub və bununla bağlı mübahisəli məsələnin həlli İmişlinin tutaq ki, hansısa bir kəndindən Prezident Administrasiyasına və Prezidentin adına ünvanlanacaq. Orada baxılacaq və qiymət veriləcək. Hazır bu yerlərdə öz həllini tapa bilirdi. Torpaq komissiyaları yaradılmışdı və bu həll olunurdu.

Mən başa düşə bilmirəm, bu qədər yükün Administrasiyaya və cənab Prezidentin üzərinə yüklənilməsi və ya göndərilməsi nə məqsəd daşıyır? Çünki Apelyasiya Şurasına, cənab Prezidentin adına şikayətlər olacaq. Hesab edirəm, cənab Prezident tərəfindən təsdiq olunmuş 2015-ci il tarixli Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin Əsasnaməsini çox düzgün qiymətləndiririk və bu əsasnamə də çox normal fəaliyyət göstərirdi. Amma indi nə baş verəcək? Bu müraciətlər Administrasiyaya gedəcək, orada baxılacaq, qayıdacaq və sair, çox uzun bir proses gedəcək. Amma yerində, pozulmuş əmlakla bağlı qanunazidd hərəkətlərin qarşısının operativ, vaxtında alınmasında nə effekt verə bilər? Çünki bu mübahisələrə baxılana qədər həmin obyektdə tikinti tikiləcək, sabah məcbur olunacaq ki, tor-

pağın təyinatının ləğvindən başqa onun üzərindəki tikilinin sökülməsi məsələsi də gündəmə gəlsin. Ona görə mən hesab edirəm, bu əlavə, dəyişiklik məqsədəuyğun deyil. Mən ümid edirəm ki, əgər qəbul olunsa da, yaxın zamanda bu məsələyə yenidən baxacağıq. Prezident Administrasiyası ərizə və şikayətlər şöbəsi deyil. Yerdə əgər Prezidentin etimad göstərdiyi qurumlar varsa, bunu həll eləyə bilərsə, yüz minlərlə ərizə, şikayətin Prezident Administrasiyasına göndərilməsini mən başa düşə bilmirəm. Sağ olun.

**Sədrlik edən**. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli Ziyafət müəllim. Ziyafət müəllim, mən bir arayış vermək istəyirdim ki, həqiqətən, bu məsələlərlə bağlı komitəyə də müraciətlər daxil olmuşdu. Amma bu məsələlər elə Prezident Administrasiyasında çox geniş öyrənildi. Mövcud praktika, yəni məhkəmə yolu ilə məsələlərin həlli uzanırdı, mübahisələr yaranırdı və yenə də cənab Prezidentə, Prezident Administrasiyasına yüzlərlə, minlərlə şikayət gedirdi. Əlbəttə, bu mənada Administrasiyanın iş yükü artır. Amma Administrasiyanın özünün, müvafiq şöbələrin iştirakı ilə onların müsbət rəyi əsasında bu qanun layihəsi hazırlanıb və təqdim olunub. Əgər burada qanunu icra edən tərəf özü bu məsələnin həllində iradə nümayiş etdirirsə, hesab edirəm, biz onu ancaq dəstəkləməliyik.

**Sədrlik edən**. Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev**. Çox sağ olun, Ziyafət müəllim. Burada qeyd olunur ki, inzibati orqanlar arasında aidiyyət və səlahiyyətlərlə bağlı mübahisələrin həlli qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll olunur. Əgər qeyd olunsa idi ki, inzibati orqanlar arasında aidiyyət və səlahiyyətlə bağlı məsələlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll olunur, bu, Çingiz müəllimin narahatçılı-

ğına əsas verərdi. Amma “həlli qaydalarının müəyyən olunması” ayrı, “mübahisələrin həlli” ayrı şeydir. Ona görə də düşünürəm ki, əlbəttə, inzibati orqanlar arasında aidiyyətlə, səlahiyyətlərlə bağlı mübahisə yaranırsa, bunu daha yuxarı orqan həll eləməlidir. Burada mən narahatçılıq üçün ciddi bir əsas görmürəm, ona görə də hesab edirəm, bu qanun layihəsinə biz səs verə bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Çox sağ olun. Çingiz müəllim, əslində, mən də Siz qaldıran məsələyə başqa cür yanaşıram. Burada söhbət inzibati orqanlarla fiziki şəxslər arasında mübahisədən getmir. Bu mübahisə yenə də məhkəmə qaydasında həll olunacaq. Burada problem yoxdur. Amma Qüdrət müəllim tamamilə düz deyir. Burada söhbət inzibati orqanlar arasında olan səlahiyyət məsələlərinin müəyyənləşməsi qaydalarından gedir. Bunu elə yuxarı icra hakimiyyəti, ya Prezident, ya da Nazirlər Kabineti səviyyəsində, – biz bilmirik, bu icra hakimiyyəti kim olacaq, – amma hər bir halda bu səlahiyyətlər müəyyən olunmalıdır. Mən burada qeyri-adi bir şey görmürəm. Buyurun, əgər başqa çıxış eləmək istəyən yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Saat dördə qədər fasilə.

## *(FASİLƏDƏN SONRA)*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xahiş edirəm, yerlərinizdə əyləşin. Gündəliyin 3 məsələsi bir zərfdə gəlib. 15-ci məsələ. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli cənab Sədr. Cənab Sədr, 15-ci və 16-cı məsələlər bir paketdə gəlib və mahiyyəti üzrə eynidir. Bildiyiniz kimi, 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşlarının fərdi identifikasiya kartının verilməsi mexanizmi artıq mövcuddur. Amma təklif olunur ki, təkcə qanunvericilikdə nəzərdə tutulan hallarda, yəni qəyyum, himayəçi, valideyn deyil, onlar olmadıqda belə, qeydə alınma notariat qaydasında həyata keçirilsin. Yəni notariat qaydasında etibarnamə verilibsə, başqa şəxslər də fərdi identifikasiya kartını ala bilsin. Hesab edirəm, bu, kartların alınmasına, xüsusilə də 15 yaşı tamam olmamış vətəndaşlar tərəfindən belə kartların əldə olunmasına ancaq töhfə verə bilər. Həmkarlardan səs vermələrini xahiş edirəm. 16-cı məsələ də "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna eyni normaların köçürülməsindən ibarətdir.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, 15-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.04 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Xahiş edirəm, 16-cı məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.05 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
17-ci məsələ. Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Buyursun Aqiyə xanım.

**A.Naxçıvanlı,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Hörmətli millət vəkilləri, bu qanun layihəsi Milli Məclisə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2019-cu il 16 yanvar tarixli məktubu ilə daxil olmuşdur. Qanun layihəsinə əsasən Ailə Məcəlləsinin 166.2-ci maddəsində "valideynlər və ya onlardan biri, valideynlərini müəyyən səbəblərə görə (xəstə olduqda, öldükdə və sair) müraciət etməsi mümkün olmadıqda isə qohumlar, qonşular, uşaq doğulduğu tibb müəssisəsinin müdiriyyəti və yaxud başqa şəxslər" sözlərinin yerinə "uşağın valideyni, qəyyumu, himayəçisi və ya onların notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında

təyin olunmuş şəxs” sözləri yazılaraq Ailə Məcəlləsinin 166.2-ci maddəsi aşağıdakı kimi təklif olunur. “Doğumun qeydə alınması üçün uşağın valideyni, qəyyumu, himayəçisi və ya onların notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs müvafiq icra hakimiyyəti orqanına müraciət edir”.

Cənab Prezident tərəfindən Azərbaycan Respublikasının Ailə Məcəlləsinə təklif olunan dəyişiklik doğumun qeydə alınmasının notariat qaydasında müəyyənləşdirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi məqsədi daşıyır. Xahiş edirəm, qanun layihəsinə səs verəsiniz. Sağ olun.

**Sədrlik edən.** Xahiş edirəm, başqa təklif yoxdursa, 17-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 18-ci məsələsi Ailə Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Aqiyə xanım, buyurun.

**A.Naxçıvanlı.** Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, gündəlikdə olan bu məsələ ilə əlaqədar bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 27 dekabr tarixli qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil

olmuşdur. Qanun layihəsinə əsasən Ailə Məcəlləsinin 164.1-ci maddəsində “təqdim edilməklə” sözlərinin “əsasında” sözü ilə əvəz edilməsi təklif olunur. Eyni zamanda, həmin maddəyə “Bu sənədlər üzrə məlumatların elektron informasiya sistemlərindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənədlər şəxslərdən tələb olunmur” məzmununda ikinci cümlənin əlavə edilməsi təklif olunur.

Bu dəyişiklik həm elektron hökumətin inkişafı ilə bağlı mövcud qanunvericiliyə uyğunlaşdırma xarakteri daşıyır, həm də vətəndaşların işinin asanlaşdırılmasına xidmət edir. Belə ki, təklif olunan qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2016–2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın 1.4-cü bəndinin icrası ilə bağlı elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi məqsədi daşıyır. Qanun layihəsi komitədə müzakirə olunub, plenar iclasa tövsiyə edilmişdir. Xahiş edərdim, qanun layihəsinə səs verəsiniz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

19-cu məsələ. Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsi gəminin üzgüçülüyə yararlığı haqqında şəhadətnamənin əsas rəsmi gəmi sənədləri siyahısından çıxarılmasını və bununla bağlı dəyişikliyi nəzərdə tutur. Əvvəllər belə sənəd tələb olunurdu. Yeni dəyişikliyə görə bu sənəd tələb edilmir. Ona görə millət vəkillərindən bu dəyişikliyə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

20-ci məsələ. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Ziyafət Əsgərov.

**Z.Əsgərov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunun 6.4-cü maddəsinə qeyd əlavə olunur. Qeydə görə 6.4.1-ci maddədə nəzərdə tutulmuş sənədlər üzrə məlu-

matların elektron informasiya sistemindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənəd vətəndaşlardan tələb olunmur.  Yəni bildiyiniz kimi, bu qanuna görə 15 yaşına çatmış kişi cinsindən olan Azərbaycan Respublikası vətəndaşlarını 15 yaşında ilkin hərbi qeydiyyata götürürlər. Qeydiyyata götürmə zamanı o sənədlər ki, elektron informasiya sistemində mövcuddur, onları oradan əldə etmək olar. Həmin sənədlər artıq vətəndaşdan tələb olunmur.

Bu, əlbəttə ki, həm vaxt itkisinin qarşısını alır, həm də vətəndaşın məmnunluğu, idarəetmənin daha da təkmilləşdirilməsi və səmərəliliyin artması üçün edilir. Məsələn, deyək ki, əgər vətəndaşdan onun doğum haqqında şəhadətnaməsi tələb olunursa və həmin şəhadətnamə Ədliyyə Nazirliyinin elektron sistemində mövcuddursa, bunu vətəndaşdan tələb etməyə ehtiyac yoxdur. Sistemə girib, onu oradan götürmək olar. Ona görə xahiş edirəm, müsbət münasibət bildirəsiniz.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.13 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

21-ci məsələ. “Dənizçinin şəxsiyyət  sənədi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihəsi. Ziyad Səmədzadə buyursun.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Dənizçinin şəxsiyyət sənədi gəmidə (hərbi gəmi istisna olmaqla) dənizçinin şəxsiyyətini təsdiq edən sənəd olmaqla sahibinə Azərbaycan Respublikasının 2006-cı il 12 may tarixli Qanunu ilə qoşulduğu Beynəlxalq Əmək Təşkilatının "Dənizçilərin şəxsiyyət sənədləri haqqında" Konvensiyasına uyğun olaraq işlədiyi gəmi ilə birlikdə və ya xaricdə işlədiyi gəmiyə çatmaq üçün fərdi qaydada ölkədən getmək və gəlmək hüququ verir. Qanun layihəsi dənizçinin şəxsiyyət sənədinin verilməsi qaydasının təkmilləşdirilməsini, habelə sənədin verilməsi üçün zəruri məlumatların elektron informasiya sistemlərindən əldə edilməsi imkanının yaradılmasını nəzərdə tutur. Millət vəkillərindən bu dəyişikliklərə də səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

22-ci məsələ. "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Qanunun 77.2-ci və 78.7.1.1-ci maddələrinə

aşağıdakı cümlələr əlavə edilir: “Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlar istisna olmaqla”, “Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların emissiya etdiyi qiymətli kağızlarla olan əməliyyatlara”.

Bu qanun ona görə qəbul olunur ki, qiymətli kağızlar bazarında indiyə qədər bu məsələ öz həllini tapmamışdır. Ona görə də həmin əməliyyatlara bu qanunun bir sıra normalarının şamil edilməməsi ilə bağlı dəyişiklik nəzərdə tutulmuşdur.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, 22-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.16 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 23-cü məsələsi. “Patent haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” və “İxrac nəzarəti haqqında” qanunlarda dəyişiklik edilməsi barədə. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsinə görə Agentlik müəlliflik hüququ və əlaqəli hüquqlar, məlumat toplularına və inteqral sxem topologiyalarına

hüquqlar, ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına və coğrafi göstəricilərə hüquqlar, Azərbaycanın folkloru nümunələrinə, ənənəvi biliklərə və digər qeyri-maddi mədəni irs nümunələrinə hüquqlar sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimlənməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən publik hüquqi şəxs olmuşdur. Ona görə də "Patent haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" və "İxrac nəzarəti haqqında" qanunlarda nəzərdə tutulan səlahiyyətləri həyata keçirən qurumun müvafiq icra hakimiyyəti orqanı statusunun olmaması qeyd olunan dəyişiklikləri zəruri etmişdir. Millət vəkillərindən bu qanun layihələrinə də ayrı-ayrılıqda səs vermələrini xahiş edirəm. Bilirsiniz ki, Agentlik dövlət orqanı idi, indi artıq publik hüquqi şəxsə çevrilmişdir.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, gündəliyin 23-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.18 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 24-cü məsələsi. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli cənab Sədr. Bu

layihə əhəmiyyətli bir sənəddir. Belə ki, ölkəmiz "Yol hərəkəti haqqında" Vyana Konvensiyasına qoşulmuşdur və ondan irəli gələn qanunvericilik  və praktik tədbirlər görülməkdədir. Bu yeniliklər əsasında sürücülük vəsiqələrində göstərilməli olan məlumatların siyahısı daha da dəqiqləşdirilir və beynəlxalq standartlara uyğunlaşdırılır. Sürücülük vəsiqələrindəki məlumatlar ingilis dilində qeyd olunur. Sürücülük vəsiqələrində yeni alt kateqoriyalar müəyyən edilir.  Misal üçün, B1, S1, D1 və sair. Nəhayət, sürücülük vəsiqələrində hər bir şəxsin fərdi identifikasiya nömrəsi də mütləq qaydada qeyd olunur. Qeyd etməliyəm ki, bu layihənin meydana çıxmasına səbəb, əslində,  bizim 2018-ci il 31 may tarixində qəbul etdiyimiz "Yol hərəkəti haqqında " Qanundur.  Həmin qanunun 2-ci maddəsində də yeni sürücülük vəsiqələrinin tətbiqi ilə bağlı keçid müddəaları mövcud idi.

Cənab Sədr, komitə müzakirəsindən sonra mətbuatda yeni sürücülük vəsiqələrinin alınması ilə bağlı bir sıra narahatlıq doğuran məlumatlar yayıldı. Eyni zamanda, komitəyə çoxsaylı müraciətlər də daxil olmuşdur. Komitəmizin üzvü Çingiz Qənizadə bu məsələ ilə bağlı müvafiq araşdırmalar apardı. Etiraz etməsəniz, o, kiçik arayış verərdi ki, ümumiyyətlə, ölkə əhalisində yeni sürücülük vəsiqələri ilə bağlı heç bir narahatçılıq yaranmasın.

**Sədrlik edən.** Çingiz Qənizadə. Mikrofon verin.

**Ç.Qənizadə.** Təşəkkür edirəm, cənab Sədr.  Komitə sədrimizin qeyd etdiyi kimi, gündəliyə bu məsələ salındıqdan sonra çoxsaylı zənglər oldu və mətbuatda müəyyən yazılar getdi. Burada da əsas narahatlıq doğuran məqam o idi ki, bu qanun  qəbul edildikdən sonra ölkədə bu gün qüvvədə olan sürücülük vəsiqələrinin hamısı kütləvi dəyişdiriləcək. Əslində, bu informasiya yanlış idi. Bunun

bir daha aydınlaşdırılması üçün mən Əli müəllimin tapşırığı ilə Baş Dövlət Yol Polisi İdarəsi ilə əlaqə saxladım və bir daha qəbul etdiyimiz qanunlara istinad etdik. İndi açıqlama vermək istəyirəm, məsələ ilə bağlı narahat olan insanlar bilsinlər ki, bu qanunun qəbulundan sonra ölkədə bu gün qüvvədə olan sürücülük vəsiqələrinin hamısı kütləvi şəkildə dəyişdirilməyəcək. Bu, bayaq qeyd olunduğu kimi, bizim qoşulduğumuz beynəlxalq konvensiyaya, Vyana Konvensiyasına uyğun olaraq, 2018-ci ildə qəbul etdiyimiz "Yol hərəkəti haqqında" Qanunun icrası ilə bağlıdır. Burada bizim bəzi sürücülərimizdən nə tələb olunacaq? Sərnişin və yükdaşıma ilə məşğul olan beynəlxalq, yəni başqa ölkələrə tranzit yük, sərnişin aparıb-gətirən sürücülər bu qanunun tələbinə uyğun olaraq sürücülük vəsiqələrini dəyişməlidirlər. Çünki bəzi ölkələrdə bununla bağlı artıq iradlar, problemlər yaranır və sair.

Bir də fərdi qaydada, kim öz şəxsi maşını ilə turist səfəri ilə ölkə xaricinə getmək istəyirsə, o, viza alan kimi, səfərə hazırlaşan bir şəxs kimi, sürücülük vəsiqəsi, – bu gün bilirsiniz ki, bu, "ASAN xidmət" orqanlarında dəyişdirilir, – qısa bir zamanda dəyişə bilər. Nəyə görə bu adamlar sürücülük vəsiqələrini dəyişməlidirlər? Çünki bu gün bizim qüvvədə olan sürücülük vəsiqəsində 4 latın hərfi var ki, o, beynəlxalq standartlara uyğun gəlmir. Bu, "ə", "ğ", "ö", "ü" hərfləridir. Yəni biz əgər bu konvensiyanın tələblərinə uyğun olaraq sürücülük vəsiqələrinin məlumatlarının ingilis dilində təkrarlanmasını mütləq şəkildə qeyd ediriksə, həmin 4 hərf ingilis dilində olmadığı üçün müəyyən problemlər yaradır. Bir də sürücülük vəsiqəsində şəxsi fərdi identifikasiya nömrələrinin mütləq qeyd olunması tələb olunur. Bu, xarici ölkələrdə müəyyən inzibati protokolların yazılması zamanı Azərbaycan vətən-

daşlarının sürücülük vəsiqəsi ilə bağlı problemlərin olması ilə bağlıdır. Ona görə biz bir neçə tələbə  əməl etməliyik. Əgər biz idarə etdiyimiz nəqliyyat vasitəsi ilə, istər yük, istər sərnişin daşımanı həyata keçiririksə, istərsə də  könüllü şəkildə turist səfəri ilə xarici ölkələrə gediriksə, həmin vəsiqəni  dəyişməliyik. Amma digər Azərbaycan vətəndaşları bu gün qüvvədə olan və müddəti bitməmiş sürücülük vəsiqələri ilə ölkə daxilində sürücülük funksiyasını sərbəst həyata keçirə bilərlər. Sağ olun.

**Sədrlik edən.** Aydın oldu, sağ olun. Başqa bir fikir yoxdursa, xahiş edirəm, gündəliyin 24-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.24 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 25-ci məsələsi Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Əli Hüseynli buyursun.

**Ə.Hüseynli.** Çox sağ olun. Cənab Sədr, 25-ci, 26-cı və 27-ci məsələlər eyni məktubda daxil olub. İcazə versəydiniz, bizim komitəyə aid olan iki məsələni məruzə edərdim. Şəhərsalma və Tikinti Məcəlləsində, eyni zamanda, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyin mahiyyəti ondan ibarətdir ki, reklam qurğularının tikintisinə, quraşdırılmasına və ümumiyyətlə, onlara dəyişikliklər edilməsinə icazə verilməsi prosedurаları sadələşdirilir. Bu,

ilk növbədə Şəhərsalma və Tikinti Məcəlləsində öz əksini tapır. Qeyd olunur ki, reklam yerləşdirilməsi üçün nəzərdə tutulan ərazi 60 kvadrat metrdən az olduqda tikintiyə icazə sənədinin alınmasına ehtiyac olmur. Ümumiyyətlə, son dövrlər Şəhərsalma və Tikinti Məcəlləsində biz bir sıra mütərəqqi dəyişikliklər etmişik. Təqdirəlayiq haldır ki, bütövlükdə, cənab Prezidentin idarəetmə ilə bağlı həyata keçirdiyi siyasət nəticəsində hazırda tikinti, şəhərsalma ilə bağlı bütün işlərə artıq bu sahədə ixtisaslaşmış orqan olan Şəhərsalma və Tikinti Komitəsi cavabdehdir. Bu çox düzgün bir yanaşmadır. Eyni zamanda, elə bu islahatlardan irəli gələrək artıq neçənci dəfədir ki, Şəhərsalma və Tikinti Məcəlləsinə müddətlərin azaldılması, tikintiyə icazənin daha da sadələşdirilməsi ilə bağlı, bax, bu cür təkliflər irəli sürülür. Mən həmkarlarımdan hər iki layihəyə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli Oqtay müəllim. Hörmətli cənab Sədr, təbii ki, mənim deyəcəyim məsələ birbaşa qanun layihəsinə aid deyil. Ancaq dolayısı ilə onunla bağlıdır. Mən dəyişikliyə səs verəcəyəm.

2018-ci ilin aprelindən ölkə Prezidentinin sərəncamı ilə Şəhərsalma və Arxitektura Komitəsinə bir nəfər təyin olundu. Biz bunu alqışladıq ki, cavan oğlandır, müasirdir, Bakı şəhərində tikintiyə yeniliklər gətirəcək və Bakı şəhərinin gözəlləşməsinə öz töhfəsini verəcək. Gələn kimi bütün tikinti işlərini dayandırdı. Bakı şəhərində bu gün tikinti sahəsində çalışan 50 mindən yuxarı insan, fəhlə işsizdir. Bu şəxs, görəsən, bunun məsuliyyətini başa düşürmü? Ölkə Prezidentinin bu gün siyasətinin mayası, başlıca məqsədi işsizliyin aradan qaldırılmasıdır, işsizliyə son qoymaqdır və məşğulluğun təmin edilməsidir. Bununla

bağlı ciddi layihələr həyata keçirilməkdədir. Ancaq bu şəxs bir ilə yaxındır ki, Bakı şəhərində tikinti işini dayandırıb.

Oqtay müəllim, çox yaxşı bilirsiniz ki, mənim tikinti, filanla heç bir əlaqəm yoxdur. Ancaq bizə müraciət edirlər ki, bu insanların iş ilə təmin olunmasına nəyə görə, hansı səbəbdən qadağa qoyulub? Düşünürəm ki, bunun üçün kifayət qədər ciddi narahatlıqlar var. Bu narahatlığın aradan qaldırılması üçün mənə elə gəlir ki, ciddi və konkret addımlar atılmalıdır. Vaxtı ilə biz burada, Milli Məclisdə Maliyyə Bazarlarına Nəzarət Palatasını yaradanda Rüfət Aslanlını alqışlarla qarşıladıq, dedik, cavan oğlandır, yenilik yaradacaq, gəldi heç nə etmədi. İndi bu Samir deyilən bir oğlan, cavan uşaq var, gəlib bu insanların məşğulluğuna qadağa qoyur. Düşünürəm ki, Oqtay müəllim, mənim bu çıxışım bəlkə də bir az sərt xarakter daşıyır. Ancaq xahiş edirəm, Siz də bununla maraqlanın və düşünürəm ki, maraqlanandan sonra Siz də mənimlə razılaşacaqsınız. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. O şəxsin adı, soyadı var. Samir Nuriyevdir, cavandır, savadlıdır, normal da bir insandır. Ancaq araşdırmamış bir məsələni, xahiş edirəm, burada biz səsləndiririk, indi yazacaqlar ki, 50 min. 50 min tikinti harada dayanıb? Belə bir dəqiq sənəd var əlində, Fəzail müəllim?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İşçi? Dəqiqləşdirilməmiş məsələni, xahiş edirəm, Sizdən...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Danışdın, qulaq asdım, mən də sənə öz fikrimi deyirəm. Dəqiqləşdirilməmiş məsələləri qaldırıb belə ajiotaj yaratmaq lazım deyil. Təzə təşkilatdır, yaranıb, bəlkə nə isə məsələlər var, nələri isə dayandırıb-

lar. Bəlkə qanunsuz nə isə olub? Bir araşdıraq, ondan sonra danışaq. Araşdırmamış bura çıxaranda düzgün olmur. Mənə dediniz, mən də araşdıracağam.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əlbəttə, bu düzgün söhbət deyil ki, cavan uşaq. Prezidentin sərəncamı ilə təyin olunmuş adamdır. Nə aidiyyəti var – cavan uşaq, qoca uşaq.

Gündəliyin 25-ci məsələsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.29 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 26-cı məsələsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.30 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

27-ci məsələ "Reklam haqqında" Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Birinci oxunuşdur. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. “Reklam haqqında” Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi aşağıdakıları nəzərdə tutur.

Birinci, 2.11-ci, 4.7-ci, 26.22.2-ci, 26.8-ci və 35.2-ci maddələrdə dəqiqləşdirmə xarakterli dəyişiklikləri.

İkinci, açıq məkanda reklamın dairəsinin müəyyən olunmasını. Bayıra ünvanlanmaqla qapıların, pəncərələrin, vitrinlərin çöl və iç tərəflərində yerləşdirilən reklamlar da açıq məkanda reklam hesab olunacaq.

Üçüncü, reklam qurğularının tikintisi və quraşdırılması ilə bağlı məsələlərin Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq tənzimlənməsini.

Dördüncü, açıq məkanda reklam yerləşdirmək üçün reklam yayıcısının Dövlət Reklam Agentliyindən aldığı icazənin maksimal müddətinin 1 ildən 3 ilədək artırılması və eyni zamanda, icazə müqavilələrinin ləğvini.

Beşinci, obyektlərin adını göstərən reklam hesab olunmayan lövhələrin ölçüsünün 2 kvadratmetrdən 1 kvadratmetrədək azaldılmasını.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, qanun layihəsi birinci oxunuşdur, hesab edirəm ki, biz ikinci oxunuşda millət vəkillərinin də təkliflərini, tövsiyələrini nəzərə alacağıq. Ona görə, millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, 27-ci məsələyə münasibət bildirək, birinci oxunuşda.

| **Səsvermənin nəticələri** | (saat 16.32 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəliyin 28-ci məsələsi "Kitabxana işi haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Rafael Hüseynov.

**R.Hüseynov.** Hörmətli millət vəkilləri, gündəlikdə yer alan 28-ci, 29-cu və 30-cu məsələlər eyni mahiyyətlə bağlı olduğundan, icazə versəydiniz, mən onlar haqqında ümumi məlumat verərdim, sonra ayrı-ayrı səsə qoyardıq.

**Sədrlik edən.** Rafael müəllim, 28-ci məsələ birinci oxunuşdur. Birinci oxunuş barədə ayrıca, sonra qalan iki məsələ haqqında məlumat verə bilərsiniz.

**R.Hüseynov.** Kitabxana Azərbaycan insanının düşüncə həyatında mühüm yer tutan bir amildir və hamımız kitabxanalardan keçmişik. 2019-cu il başlanarkən Azərbaycan Prezidentinin imzaladığı ilk fərmanlardan birinin məhz kitabxanaların yenidən qurulması, təkmilləşdirilməsi ilə bağlı olması bu səbəbdən təsadüfi deyildir. 2019-cu il yanvar ayının 15-də cənab Prezidentin imzaladığı Fərman Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə əlaqədar tədbirlər haqqındadır. Orada konkret olaraq nəzərdə tutulur ki, informasiya kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla, ölkədə kitabxana sistemi yenidən qurulsun. Bu isə əlbəttə, elektronlaşdırma istiqamətində ciddi addımlar atılmasını nəzərdə tutur. Çünki kitab işində Qutenberq erası nə qədər böyük bir inqilabi sıçrayışın başlanğıcı idisə, artıq XX əsrin sonlarından etibarən XXI əsrdə audiovizual sistem, elektron kitabxana

daha aktuallaşır. Ona görə də bu gün Azərbaycanda Mədəniyyət Nazirliyi şəbəkəsində mövcud olan 3000-ə yaxın kitabxana və müxtəlif müəssisələrin tərkibindəki 1000-ə yaxın kitabxana, üst-üstə 4000-ə yaxın kitabxana, təbii ki, günün tələbləri baxımından yenidən qurulmalıdır.

Ona görə də "Kitabxana işi haqqında" Qanunda 12-ci və 15-ci maddələrin dəyişdirilməsi nəzərdə tutulur. "Kitabxana işi haqqında" qanunun 12-ci maddəsi "Kitabxana fondunun tərkibi" adlanır. Həmin maddəyə indi "elektron və digər texniki vasitələrlə oxunan materiallar" ifadəsi əlavə edilir ki, bu da kitabxanaların geniş ölçüdə elektronlaşdırılmasını nəzərdə tutur.

Digər dəyişikliyə uğrayan, genişləndirilən maddə kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı məsələsi ilə əlaqədardır. Burada da, əlbəttə ki, ilk sırada dayanan əsas dəyişiklik elektron versiyaların, variantların, ayrı-ayrı nəşrlərin kitabxanalara verilməsi, digər cəhətdən isə məcburi nüsxələrin nəzərdə tutulan qurumlara yönəldilməsidir. Çünki bu, bir tərəfdən, müəlliflər, nəşriyyatlar üçün faydalıdır, digər tərəfdən də, ölkədəki kitab həyatının ümumi mənzərəsini dəqiq görmək üçün vacibdir. Çünki bir ara burada çox pərakəndəlik, səliqəsizlik olmuşdu. İndi bu 15-ci maddədə belə dəqiqləşdirilmələrin aparılması, əlbəttə ki, kitabxanaların bazasının təminatını daha artıq təmin edəcəkdir. Həmkarlarımızı ilk oxunuşda təqdim olunan bu dəyişikliklərə səs verməyə çağırıram.

**Sədrlik edən.** 28-ci məsələ birinci oxunuşdur. Buyursun Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişiklik 15-ci maddəyə aiddir və digər qanunlara edilən dəyişikliklər də həmin 15-ci maddəyə əsaslanır. Mənə elə gəlir ki,

birinci oxunuşda təklif edilən variantda qeyri-müəyyənlik var. Yəni mövcud variantda məcburi nüsxələri almaq hüququna malik olan kitabxanaların dəqiq siyahısı göstərilirdi, lakin verilən nüsxələrin konkret sayı göstərilmirdi. İndi bizə təqdim olunan variantda isə, əksinə nüsxələrin sayı göstərilir, lakin kitabxanaların adları göstərilmir. Məsələn, yazılır ki, Milli Məclisin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) kitabxanalarına 2 pulsuz məcburi nüsxə göndərilməlidir. Nə qədər?

Təqdim edilən dəyişikliyin əsas qüsuru, məncə, ondadır ki, təklifdə bu məcburi nüsxələrin kimin hesabına çap olunaraq həmin kitabxanalara göndərilməsi göstərilmir. Söhbət ondan gedir ki, bir çox yazar dostlarımız, mən özüm, çox vaxt kitablarımızı öz vəsaitimizlə çap edirik və tirajımız da çox vaxt cüzi olur. 100 nüsxədən 300 nüsxəyə kimi. İndi təsəvvür edin ki, məcburi nüsxələrin kitabxanalara göndərilməsi üçün nəşriyyat bizdən 30, ya 50 kitab alacaq. Hazırda 5–10 kitab alırlar. İndi 30, ya 50 olacaq. Məncə, bu, ədalətsizdir və bizim müəllif hüququmuza xələl gətirir. Üstəlik də əlimizdə öz tələbatımıza uyğun kifayət qədər kitab da qalmır.

Təklif edərdim ki, yeni variantda məcburi nüsxələrin bizim tirajımız hesabına deyil, məhz nəşriyyatın hesabına əlavə çap edilməsi və göndərilməsi müddəası əks olunsun. Çünki hazırda böyük nəşriyyatlar Milli Kitabxanaya, Prezident Kitabxanasına məcburi nüsxələri hərdən göndərirlər, lakin bunu bizim tirajımız hesabına edirlər. Düşünürəm ki, bu, ədalətli deyil. Çünki bilirsiniz ki, hazırda bir-iki nəfər yazar istisna olmaqla, qalanları ən imkansız təbəqədir və öz kitablarını 100, 200 nüsxə çap etmək üçün hərdən ailə büdcəsindən kəsərək, axırıncı vəsaitlərini

verirlər. Ona görə nəşriyyatın bu işdə məsuliyyəti daha dəqiq və konkret yazılmalıdır. Belə variantda isə bu dəyişikliyi qəbul etmək münasib deyildir. Çox sağ olun.

**Sədrlik edən.** Demək istəyirsən ki, Elmira xanım, nəşriyyatın imkanı lap çoxdur da. İndi yüz nəfər yazıçı varsa, hər yazıçının bir kitabını yüz ədəd çap edəndə gəlib 10000-ə çıxır. Yəni bu məsələlər var. Bu, konseptual çıxışdır, ikinci oxunuşda bu məsələlərə baxarıq. Buyursun Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm, hörmətli cənab Sədr. Hörmətli həmkarlar, çox qısa şəkildə bu məsələ ətrafında fikirlərimi bölüşmək istəyirəm. Əlbəttə ki, orta və yaşlı nəsil söhbət kitab, yaxud kitabxanaçılıq mövzusundan düşəndə xiffətlə sovet dövrünü xatırlayır və o illərin kitaba münasibəti, kitab oxunmasının az qala dövlətin ideolojisində, siyasətində ön yerdə olmasını, bunun bütün ictimai həyatımızı, – metrodan avtobusa, istirahətdən elmi işə qədər əhatə etməsini, – kitablardan keçməsini haqlı olaraq vurğulayırlar. Ancaq mən həddindən artıq bədbin olmağın da əleyhinəyəm. Çünki sovet illərində kommunikasiya vasitələri bu qədər inkişaf etməmişdi və kitabı əvəz edəcək resurslar bu qədər çox deyildi. İndi internet dünyası öz-özlüyündə böyük okeandır və bizim çap mətbuatını, ədəbiyyatı, bütün sahələr üzrə kitabları əvəz etməkdədir. Ona görə də, əlbəttə, bu yöndə kommunikasiya vasitələrindəki rəqabətə tab gətirmək lazımdır. Hörmətli Rafael müəllimin qeyd etdiyi kimi, bizim elektron vasitələrdə olan kitablarımızın artırılması, kitab bazasının genişləndirilməsi sürətli bir iş kimi getməkdədir. Hörmətli Mehriban xanımın bu sahəyə ayrıca diqqəti oldu, bir neçə beynəlxalq, əsasən, geniş fonda malik kitabxanalarla əlaqələr quruldu, əməkdaşlıq sənədləri imzalandı və

biz bu işdə bir hərəkətlənməni görməkdəyik. Amma görüləcək işlər də həddindən artıq çoxdur.

Təbii ki, Azərbaycanda hamı yazıçı, elm adamı ola, yaxud hamının qələm məhsulu dünya məkanına çıxa bilməz. Amma kitaba, kitabxanaya münasibətimizi yüksək səviyyədə saxlamalıyıq. Ona görə mənim nə təkliflərim var?

Birinci təklifim ondan ibarətdir ki, – hörmətli Rafael müəllim media, informasiya məkanında kifayət qədər fəal bir insandır, mühüm bir qurumun rəhbəridir, – Azərbaycanda kitabxanaçılıq günü yoxdur. Bəlkə də bunu kimsə kitab günü kimi ümumiləşdirə bilər. Amma kitabxana sahəsində ən çətin zəhmətə qatlaşan insanlarımız üçün mənəvi bir göstərici, bir diqqət məsələsi olar. Azərbaycanda Neftçilər günündən tutmuş digərlərinə qədər hökumətə aid olan bütün sahələrin xüsusi günləri var. Neftçilərdən az zəhməti olmayan, bizə ziya, idrak, düşüncə verən kitabxanaçılıq sahəsində olan insanlardır. Düşünürəm ki, bu günlə əlaqədar işlər görülməlidir.

İkincisi, bizdə qələm məhsulları kifayət qədər yüksək səviyyədə olan şəxslər var. Mən onların bir neçəsinin adını çəkmək istəyirəm, bir dəfə də bu tribunadan söyləmişəm. Çapay Sultanov. O, bir akademiyanın işini görən nəhəng bir alim idi. O, bizim ünlü simalar – Azad Mirzəcanzadə, Lütfizadə kimi dünya miqyasına çıxacaq bir sima idi. Azərbaycan xalqının, hətta elmi dairələrdə olanlarımızın da maksimum bir faizi onu tanıya, ya tanımaya. Hər kəsə bəllidir ki, elə adamlar bu məsələlərdə çox utancaq, çəkingən olurlar. Bilmirəm, bu sözü indi tribunadan deməyim nə qədər yerinə düşər, Brejnevin bir sözünü xatırlayıram. O, ətrafındakı adamlara deyirmiş ki, a kişi, dərin savadı olmayan müxtəlif qələm adamlarını, yazıçı-

ları mən Kremldən qova bilmirəm, adamın gözünə girirlər, amma dərin saydığımız yazıçıları da burada görmürük.

Çapay Sultanov kimi alimin əsərləri dünyada milyon tirajla oxunur. Bu elektron sistemlər sözün yaxşı mənasında, pafosla desək, imperiyadırlar. Bunların gücünü artırmaq, qorumaq lazımdır. Bayaq mən bir ingilis müəllifinin Qarabağla bağlı kitabını dedim. Milli kitabxana sistemimizdə biz onların hamısını tapıb ümumiləşdirməyi bacarmalıyıq ki, təsadüfən Avropa qurumlarında əlində hazır resurslar olmayan insan buradan o materialları hazır götürüb dünyaya yaya, Azərbaycanın mövqeyini ifadə eləyə bilsin. Çox mühüm dəyişikliklərdir, biz buna səs veririk. Amma həmkarlarımızın kitabxanaçılıq günü məsələsinə dəstək verməleri çox yaxşı bir addım olar. Mən əminəm ki, bu məsələ qərarlaşar, rəsmiləşər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ay əzizlərim, mən başlayanda dedim ki, bu birinci oxunuşdur. Xahiş edirəm, yaddan çıxarmayın. Birinci oxunuşda layihələrə konseptual yanaşılmalıdır. İkinci oxunuşda nə sözləriniz var, deyərsiniz. Bir az qayda ilə gedək. Aqil Abbas. Buyur, xahiş edirəm, konseptual yanaşma.

**A.Abbas.** Təşəkkür edirəm, hörmətli Sədr. Çalışaram konseptual yanaşım. Bu məsələ nədir? Kitabxanalarla bağlı mən parlamentdə bir dəfə də danışmışam. Möhtərəm Prezidentimiz gözəl bir sərəncam imzalayıb. Ona görə biz buna əməl edəcəyik.

Birincisi, kəndlərdə kitabxana qalmayıb. Hamısına 120 manat maaş verirdilər, görünür, kiminsə gözünə çox göründü, ləğv etdilər. Kiril əlifbası ilə olan minlərlə, yüz minlərlə kitabları çölə atdılar. Deməli, onda ərəb əlifbası ilə olan kitabları da çölə atmalıyıq? Muzeylərdən, əlyazmalar institutlarından, eləcə də kitabxanalardan. Axı, bu

sənət əsəridir. Kiril ilə çıxıb, ərəb əlifbası ilə çıxıb, bunun nə anlamı var?  Baxırsan, sosial şəbəkələrdən 50 min kitabın çölə töküldüyünü görürsən. Kitabxanalar çölə atılır ki, latın əlifbasına keçmişik. Çox gözəl, min şükür ki, keçmişik.

Məsələnin başqa bir tərəfi nədir? İndi elektron kitabxanalar var. Hamı deyir elektron kitabxanaların sayı artmalıdır. Mən bilmirəm, hansısa rayonda kimsə gedib elektron kitabxanada  kitab oxusun. Ona görə ki,  əgər evdə kompüteri varsa, nə bilim, interneti varsa, telefonu varsa, oradan da oxuya bilər. Elektron kitabxanalara milyonlarla pul töküb, gözəl binalar tikib, ağzına da qıfıl vurublar. Rayonların adını da çəkə bilərəm, qıfıl vurub, adı olub kitabxana tikmişik. Kitab başqa bir şeydir. Kitab gözəllikdir,  bir nəfəsdir,  bir ətirdir. Kitab sevdiyin qız kimi gözəldir. Sən kitabı oxuyursan,  sinənin üstünə qoyursan, onun istisini alırsan, nəfəsini duyursan. Onu oxuyursan. Elektron kitab oxudun, ya əleyhqaz geyib qızılgül iylədin, eyni şeydir. Onun heç bir dadı, ləzzəti ola bilməz. Kitab kitabdır. Kitaba diqqət artırılmalıdır.

Rayonlarda kitabxanalar ləğv olunub. Heç bir rayonda nəinki, kitabxana, indi məktəblərə verirlər, – bu gün mən danışmayacaqdım, komitəmizdə  bu söhbəti eləmişdik, amma yeri gəldi deyirəm, – rayonlarda da kitab mağazaları ləğv olunub. Bir dənə kitab mağazası yoxdur, içində ət satırlar. Bu kitabı haradan alsın bu?

İkincisi, Elmira xanım deyir ki, nəşriyyatlar ödəsin. Əvvəla, 100 kitabı niyə çap elətdirirlər? Kimə lazımdır o 100 kitab? Xala, dayı oğluna verdin, 50-sini də qoydun evə ki, nəvələrinə deyəsən ki, sənin kitabın çıxıb. Nəşriyyat da kitabxanalara hamının kitabını verə bilməz. Əgər müəllif  özünə arxayındırsa,  2000, 5000 tiraj çı-

xarsın, ondan da bir 5, 10, 50 dənə kitabxanalara verirsə, çox sağ olsun. Yəni bu fikri mən qəbul eləmirəm ki, nəşriyyatlar ödəməlidir. Nəşriyyatların buna gücü çatmır. Bu öz yerində.

Başqa bir məsələ. Bu gün rayonlarda və məktəblərdə müəyyən kitabxanalar var. Kimsə kəndlərdə saxlayıb. Özümü bir az tərifləyim, nə olar, heç pis oğlan deyiləm. Mən 1988-ci ildə Ağcabədi rayonunun Bayat kəndində atamın imkanları hesabına möhtəşəm bir kitabxana tikmişəm, qarşısında da Füzulinin büstünü qoymuşam. Adı Füzuli kitabxanasıdır.

Bu gün də fəaliyyət göstərir və gözəl bir kitabxanadır. Mən də istərəm ki, bizim imkanı olan deputatlar, – mənim o vaxt imkanım olmayıb, atamın olub, – qoy hərəsi öz kəndində bir kitabxana tiksin. Nə olar, qardaş, sənin imkanın var. Restoran açır, sağlığına qismət. Söhbət təkcə deputatlardan getmir, imkanı olan adamlardan gedir. Sən bir rayondan, bir kənddən çıxmısan, orada bir kitabxana tik. Məscid tikdirirsən, bir dənə də kitabxana tikdir də, nə olar ki?

Kitabxana vacib bir məsələdir. Amma çox təəssüf ki, dediyim kimi, kitabxanalar azdır.

Oqtay müəllim, üzr istəyirəm, qurtarıram. Kitabxanalar artırılmalıdır. Bir də kitabxanalara Mədəniyyət Nazirliyi kitab göndərir. Deyək ki, müəyyən qurumlar kitab göndərir. Amma kimlərin kitabını göndərir? Gənc, orta nəsil şair və yazıçıların kitabları göndərilmir. Dövlət sifarişi ilə olan kitablar göndərilir. Əgər Rafael müəllim öz cibinin puluna kitab çap elətdirsə, onu göndərmirlər. Olsun Elmira xanımın özü, ya başqa şair, yazıçı, ya da alim, İsa Həbibbəyli və başqası. Göndərməyəcəklər. Yəni dövlət sifarişi ilə olanları göndərirlər. Bəs kənddə, rayonda olan camaat, bu adamın,

nə bilim Aqşin Yeniseydir, ya kimdir, bu insanların, cavanların, yaxud Vaqif Cəbrayılzadə, Ramiz Rövşən, Zakir Fəxrinin kitabını haradan alsın?

Yəni onu demək istəyirəm ki, Mədəniyyət Nazirliyi dediyim şəxslərin dövlət sifarişində olmayan kitablarını da kitabxanaya göndərməlidir, camaat tanısın və bilsin. Mən Ərzurum Universitetinə, Abbas Zamanov kitabxanasına 1300–1400 nüsxə kitab aparmışdım. Azərbaycanın bütün şair, yazıçı, rəssam, heykəltaraşlarının kitablarını, ensiklopediyaları. Orada Abbas Zamanov kitabxanası var. Hədiyyə aparmışdım ki, onları, o cavanları da tanısınlar. Bu mənada deyirəm ki, çox ciddi məsələdir. Ürəklə səs veririk. Hamıdan da xahiş edirəm, kimin imkanı varsa, kitabxanaya kömək eləsin. Nə isə sağ olun. Təşəkkür edirəm, hörmətli Sədr.

**Sədrlik edən.** Rəfael Hüseynov, söz demək istəyirdiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mikrofon verin.

**R.Hüseynov.** Qısaca olaraq bu gün səslənən iradlara və ola bilsin, gələn ikinci oxunuşda səslənə biləcək düşüncələrə cavab olaraq bir məsələni vurğulamağı zəruri sayıram. Mən təqdimatdan öncə bildirdim ki, yanvar ayının 15-də bu il cənab Prezident ayrıca bir fərman imzalayıb və bu, bütövlükdə kitabxana sisteminin yenidən qurulmasını nəzərdə tutur. Həmin fərmanın icrası ilə əlaqədar təkliflər hazırlanması üçün müəyyən bir müddət qoyulubdur. Bu o deməkdir ki, biz çox uzaq olmayan gələcəkdə kitabxana haqqında qanunumuza mütləq yenidən qayıdacağıq. Amma indi kitabxanalarımız kitabxana haqqındakı mövcud qanunla işləyir. Bu qanunla indiki aralıq müddət üçün bu dəyişiklikləri eləmək zəruridir. Ona

görə mən həmkarlarımıza təklif edirəm, bu gün elə ikinci oxunuşda da bu məsələlər haqqında daha geniş müzakirələr aparmadan müzakirələri kitabxana ilə bağlı qanunumuzun daha təkmil bir formasının yaranacağı, sonrakı müddətə saxlayaraq bugünkü səsvermədə müsbət münasibətimizi bildirək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 28-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

İndi isə 29-cu və 30-cu məsələləri bir yerdə təqdim eləmək olar. Rəfael Hüseynov.

**R.Hüseynov.** Hörmətli millət vəkilləri, artıq bu iki qanun layihəsinə bizim göstərəcəyimiz münasibət uzlaşdırma səciyyəsi daşıyır. Çünki "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 29-cu maddəsi, "Nəşriyyat işi haqqında" Qanunun 22-ci maddəsi məcburi nüsxələr ilə bağlıdır. Məcburi nüsxələr ilə bağlı təfərrüat isə artıq "Kitabxana işi haqqında" Qanunun 15-ci maddəsində əksini tapır. Bu qanunlar arasında uzlaşdırma səciyyəsi daşıdığına görə, rica edirəm ki, müsbət münasibət bildirəsiniz.

**Sədrlik edən.** Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Bu gün iclasın birinci hissəsində də səsləndi ki, "Kütləvi informa-

siya vasitələri haqqında" Qanunda müvafiq əlavə və dəyişikliklərə ehtiyac var. Hesab edirəm, tək bu məsələ ilə əlaqədar deyil, ümumiyyətlə, biz buna daha geniş formada baxmalıyıq və "Kütləvi informasiya vasitələri haqqında" Qanunda yeniliklər olmalıdır, müəyyən məsələlərlə bağlı yeni qaydalar təsdiq olunmalıdır. Artıq bəllidir ki, qəzetlərdə, jurnallarda həm ölçüləri, həm kağızın rəngi, həm də çapın növləri ilə bağlı müvafiq təkmilləşmə işləri gedir. Bununla yanaşı, qeyd olundu, ən əsas məsələ ondan ibarətdir ki, bəzi kütləvi informasiya vasitələrində artıq bütün etik qaydaları, milli adət və ənənələri ötüb keçiblər. Bunların qarşısının alınması üçün birinci şərt qanunvericilikdir. Biz bunu qanunvericiliklə tənzimləməliyik. Vətəndaşın təhqir olunması, özünün, ailəsinin, ətrafının aşağılanması, dövlətin əleyhinə fikirlər, dövlət çevrilişinə çağırışlar, bunların nəticəsi olaraq da müxtəlif adamların istənilən fikri söyləməsi. Cəzasızlıq mühiti gətirib bu vəziyyətə çıxarıb. Mən hesab edirəm ki, biz "Kütləvi informasiya vasitələri haqqında" Qanunda ciddi bir dəyişiklik eləməliyik. Onun forması tapılmalıdır. Burada hörmətli Mətbuat Şurasının sədri əyləşibdir. Onlar yığışıb təxminən müəyyənləşdirməlidirlər ki, bu məsələni necə həll edək.

Azərbaycanda həmişə xətir-hörmət, böyük-kiçik, adət-ənənə olub. İndi 5–10 adam ortaya düşüb ölkə, dövlət, dövlətçilik, dövlətin qurucusu haqqında istənilən fikir deyir. Halbuki, dünyanın heç bir ölkəsində bu dövlət qurucusu qədər mətbuata diqqət göstərən ikinci şəxs olmayıb. Hakimiyyətə gələn dövrdən ümummilli lider senzuranı ləğv elədi. Bütün mətbuat orqanlarının, ən kəskin şəkildə sözlər deyən, yazan mətbuat orqanlarının da borclarını dayandırdı. Bu gün Prezidentimiz mətbuat nümayəndələrinə

mənzillər verir. Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu var. Hər il qəzet dövlət büdcəsindən yüz minlərlə manat pul alır. Ayrı-ayrı saytların rəhbərləri yardım alırlar. Hesab edirəm, bunlar da məsələlərə öz adekvat münasibətini bildirməlidir. Amerikanı, Avropanı, başqa ölkələri göstərsinlər, hansında insana bir daxma verirlər? Artıq mətbuat nümayəndələri üçün üçüncü bina tikilir. 10 il mətbuatda çalışan hər hansı bir insan orada mənzil ilə təmin olunur. Elə qəzet var ki, həmin qəzetin 10 nümayəndəsi artıq ev alıb. Elə mətbuat orqanı var ki, artıq 15 nümayəndəsi mənzil ilə təmin olunub. O baxımdan hesab edirəm, burada o mətbuat orqanlarının nümayəndələri də öz vahid fikirlərini bildirməlidirlər ki, Azərbaycanda təhqirə, söyüşə yer yoxdur. Əgər kim bu addımı atacaqsa, mətbuat nümayəndələri də ona qarşı öz sözünü deməlidir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Yenidən bu söhbətə qayıtdıq. Siyavuş müəllimin dediyində həqiqətlər var. Elə ulu öndər idi, hamının qarşısını aldı, biz o Sirakuz prinsiplərinə qoşulduq ki, şərəf və ləyaqətə toxunan məsələlərə görə məhkəməyə verməyək. Şərəf və ləyaqətdən də ağır təhqirə keçirlər. Ona görə bu məsələləri elə Mətbuat Şurası da, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi də oturub fikirləşməlidir, bir həllini tapmalıyıq. İndi başqa təklif yoxdursa, xahiş edirəm, 29-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

30-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.59 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 31-ci məsələsi "Milli arxiv fondu haqqında" Qanunda dəyişiklik edilməsidir. Rəfael Hüseynov.

**R.Hüseynov.** Hörmətli millət vəkilləri, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda təklif olunan dəyişikliklər qanun şəbəkəmizdə uyğunlaşmanı təmin etmək vəzifəsi daşıyır. Çünki indi "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsinə əlavə edilməli olan müddəalar, əslində, 2018-ci il iyun ayının 12-dən "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklərə əsasən tətbiq edilməkdədir. Yəni indiki halda bu müddəaların "Milli arxiv fondu haqqında" Qanuna əlavə edilməsi müəyyən mənada texniki səciyyə daşıyır, uzlaşdırma məqsədlidir. Ona görə də həmkarlarımızı səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, 31-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.00 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 32-ci məsələsi. Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi. Bu da birinci oxunuşdur. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Minnətdaram, Oqtay müəllim. Bu 4, 32-ci, 33-cü, 34-cü və 35-ci məsələlər eyni məzmuna malikdir. Amma 32-ci məsələ birinci oxunuşda iki məcəlləyə edilən dəyişikliklə bağlıdır. Bildiyiniz kimi, ölkəmizdə elektron hökumət istiqamətində böyük işlər görülür. Münasibətlərin şəffaflığı və digər məsələlərdə addımlar atılır. Bu baxımdan, bildiyiniz kimi, Davos İqtisadi Forumunda dünya miqyasında Azərbaycanın yeri 25-ci pillədə müəyyənləşdi. Bununla bağlı möhtərəm Prezidentimizin 258 saylı 2018-ci il 5 sentyabr tarixli fərmanı var. Bu fərmanda da həmin elektron hökumət elementlərinə xüsusi diqqət yetirilib.

Əmək Məcəlləsinin 3-cü maddəsinə bir söz, "mərkəzləşdirilmiş" sözü əlavə olundu. 14-cü maddəyə isə belə bir fikir əlavə olunur: "əmək münasibətləri sahəsində elektron xidmətləri elektron informasiya sistemi vasitəsi ilə həyata keçirir".

Bu, Əmək Məcəlləsində olan dəyişiklikdir. Amma,

eyni zamanda, Cəzaların İcrası Məcəlləsində də bir neçə dəyişiklik var. Bu, 90-cı maddədə, 90.1, 90.2, 90.3-cü maddələrdə edilən dəyişikliklərdir və 90.4-cü maddə əlavə olunur. Bunların hamısında məqsəd birdir, elektron hökumət elementlərinin tətbiqi və münasibətlərin elektronlaşdırılması. Həbsdə olan insanların pensiya təminatının ödənilməsi, digər müavinətlərin verilməsi məsələsidir ki, bunların da hamısı elektron münasibətlərə keçir. Düşünürəm ki, bu da şəffaflığa xidmət edir və olduqca əhəmiyyətli müddəalardır. Xahiş edirəm, buna deputat həmkarlarım səs versinlər.

**Sədrlik edən.** Əgər təklif yoxdursa, gündəliyin 32-ci məsələsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.03 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hadi müəllim, 33, 34, 35-i bir yerdə təqdim edəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mikrofon verin.

**H.Rəcəbli.** Bayaq səsləndirdiyim, möhtərəm Prezidentimizin həmin 258 saylı fərmanıdır, 2018-ci il sentyabrın 5-də qəbul olunub. Burada da əsas məqsəd elektron hökumət elementlərinin tətbiqidir. Hər üç qanunda, – qanunların adını sadalayıb vaxt almaq istəmirəm, – hamısında dediyimiz elektron münasibətlər ehtiva olunur. Başqa

bir fikir yoxdur. Odur ki, deputat həmkarlarımı hər üç qanuna səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, 33-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Sağ olun, qəbul edildi.

34-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, hər dəfə mənim təkrar etməm düzgün deyil, Milli Məclisə girmisiniz, telefonlarınızı keçirin, ya da səssizə qoyun. Bunu hər dəfə demək olmaz ki, bir-birimizə hörmət edək.

Gündəliyin 35-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.06 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bugünkü gündəliyimizin 3 məsələsi qalıb, üçü də birinci oxunuşdur. 36-cı məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Birinci oxunuş. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Hər üç qanun layihəsi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə əlaqədar olaraq cənab Prezidentin fərmanına əsasən hazırlanmışdır. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətlərin (hüquqi hərəkətlərin), eləcə də bu hüquqi hərəkətlərə görə dövlət rüsumlarının məbləğinin təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında"...

**Sədrlik edən.** Ziyad müəllim, qayda var, birinci oxunuşda ayrı-ayrı dedim axı, üç dəfə təkrar etməyim.

**Z.Səmədzadə.** Cənab Sədr, hər üç qanun layihəsi cənab Prezidentin fərmanı ilə əlaqədar hazırlanmışdır. "Dövlət rüsumu haqqında" Qanun birinci oxunuşdur. Burada artıq Agentliyin yaradılması ilə əlaqədar olaraq publik hüquqi şəxs kimi dövlət rüsumunun məbləğləri müəyyən edilmişdir. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm. Birinci oxunuşdur, yəqin ki, biz ikinci oxunuşda daha konkret məsələlər barədə danışacağıq.

**Sədrlik edən.** Çox sağ olun. Birinci oxunuşda çıxış yoxdursa, ikinci oxunuşda da konkret başqa şey olma-

yacaq. Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.08 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 37-ci məsələsi. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Bu da birinci oxunuşdur. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Qanun layihəsi əmtəə nişanları və coğrafi göstəricilər sahəsində bir sıra xidmətlərə görə nəzərdə tutulmuş "haqq"ın dövlət rüsumu ilə əvəz olunmasını nəzərdə tutur. Qanun layihəsi həmçinin "haqq" ödənilən xidmətlərin dairəsini dəqiqləşdirir. Belə ki, bu Qanuna görə haqqın ödənilməsi tələb olunan xidmətlərin siyahısı və həmin xidmətlərə görə haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcəkdir. Ona görə də bu qanun layihəsinə də birinci oxunuşda səs verməyinizi xahiş edərdim.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 38-ci məsələsi. "Patent haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! "Patent haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı və patentin verilməsi sahəsində bir sıra xidmətlərə görə nəzərdə tutulmuş "haqq"ın "dövlət rüsumu" ilə əvəz olunmasını nəzərdə tutur və bu məqsədlə "Dövlət rüsumu haqqında" Qanuna bayaq dediyim kimi, müvafiq dəyişikliklər təklif olunur. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də birinci oxunuşda səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.11 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, mən bir neçə dəfə demişəm, komitə sədrləri də deyib, birinci növbədə xahişimiz o idi ki, millət vəkilləri iş vaxtı işlərində olsunlar, əsas Milli Məclisin iclaslarıdır. Çox sağ olun, əksəriyyətiniz bura-

dadır. Ancaq mən fikir verirəm, bəzilərimiz var ki, günün birinci yarısı gəlirlər, ikinci yarısı yoxdurlar. Burda heç kim heç kimdən artıq deyil. Günün birinci yarısı gəlib, ikinci yarısı gəlməyən heç Milli Məclisin işində iştirak etmiş sayılmır. Ona görə, xahiş edirəm, hamımız işimizdə diqqətli olaq. Heç kimdə sonra narazılıq, inciklik olmasın ki, Milli Məclisdə nəsə oldu, kiməsə nəsə dedilər. Heç kimi, yenə deyirəm, zorla millət vəkili etməyiblər. Bu, bizim birinci iş yerimizdir.

Milli Məclisin ayda 3, 4 dəfə iclası var. Xahiş edirəm, hamı vaxtlı-vaxtında iclasda iştirak etsin. Kim üzrlüdürsə, hər bir məsələ ola bilər, üzrlü səbəbdirsə, hamı insandır, xəbər verin, gedin. Amma olmasın ki, günün birinci yarısı Milli Məclisə gəlir, ikinci yarısı yoxdur. Bir gün gəlir, bir gün gəlmir. Bunu nə qədər demək olar?

Əgər mənim sözümdə səhv varsa, irad tutun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sizdən xahiş edirəm, həmkarlarınıza da deyin. Çünki belə mümkün deyil, belə işləmək saymamazlıq olur. Üstəlik, bu gün İntizam komissiyasının tərkibini 11 nəfər etmişik.

Bugünkü iclasımız sona çatdı. Çox sağ olun.